**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Milli gəlirin formalaşmasında və artırılmasında qiymət siyasəti” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Vəfa İsgəndərli Tahir qızı**

**BAKI - 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. F.S.Əhmədov**

**______________________**

**"___" _____________ 2019-cu il**

# "Milli gəlirin formalaşmasında və artırılmasında qiymət siyasəti"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: Maliyyə_ 060403**

**İxtisaslaşma: Bank işi**

**Qrup: 600**

**Magistrant**
**Vəfa İsgəndərli Tahir qızı**

**__________________**

**Elmi rəhbər:**
**i.e.n. dos. Sadıqov Bulud Cahangir oğlu**

**________________________**

**Proqram rəhbəri: i.e.n., dos Seyfullayev İlqar Zülfüqar**

**____________________**

**Kafedra müdiri: i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**

**____________________**

**BAKI - 2019**

## SUMMARY

**The relevance of the research: Formation, distribution and redistribution of national income are the main components of the socio-economic policy implemented by the state in each economic system.**

**Purpose and tasks of the research:  The purpose of the study is to formulate national income and also to explore the Price Factor in the distribution of national income and redistribution.:Features of the formation of the national income and the level of domestic market prices are explored;**

**The role of foreign trade in the formation of national income, as well as the mechanism of influence of import-export prices;**

**Used research metods: The analysis and synthesis of the dissertation work, as well as induction and deduction methods were used.**

**Research Information Database: This research workbook provides course materials on state regulation of the national economy, pricing and national income generation, as well as statistical information, as well as information obtained from internet resources.**

**Research restrictious: Theoretical-methodological shortcomings that are hindering the research, lack of sufficient information base, and so on.**

**Results research: Formation, distribution and redistribution of national income are also the main component of the state's socio-economic policy in each economic system.**

**Scientific-practical significance of the results: The importance of price policy in increasing the national income has been studied;**

**Scientific and practical significance of the results: The main directions of the policy implemented by the state in the division of national income and the re-distribution of national income.**

**Key words: national income, redistribution of national income, market economy**

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| ABŞ: | Amerika Birləşmiş Ştatları |
| MM: | Milli gəlir |
| ÜDM: | Ümumi daxili məhsul |
| ÜMM: | Ümumi milli məhsul |
| XG: | Xalis Gəlir |

## MÜNDƏRİCAT

GİRİŞ ...................................................................................................6
FƏSİL I. MİLLİ GƏLİRİN FORMALAŞMASINDA QİYMƏT AMİLİNİN ƏHƏMİYYƏTİ VƏ ONUN ELMİ KONSEPTUAL ƏSASLARI ............................10
1.1. Milli gəlirin formalaşma xüsusiyyətləri və daxili bazar qiymətlərinin səviyyəsi .10
1.2. Milli gəlirin formalaşmasında valyuta amilinin təsiri və qiymət siyasəti............22
1.3. Milli gəlirin formalaşmasında xarici ticarətin rolu və idxal-ixrac qiymətlərinin təsiri istiqamətləri...............................................................................26
FƏSİL II. AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ GƏLİRİN FORMALAŞMASI VƏ QİYMƏT DİNAMİKASININ TƏHLİLİ ............................34
2.1. Milli Gəlirin formalaşmasında qiymət siyasətinin təsirini müəyyən edən amillərin təhlili ....................................................................................................34
2.2. Milli Gəlirin artmasında gömrük-tarif tənzimlənməsinin mövcud vəziyyətinin və daxili bazar qiymətlərinə təsirinin qiymətləndirilməsi ..............................................40
2.3. Milli gəlirin yaranma mənbələrinin təhlili ..........................................................45
FƏSİL III. MİLLİ GƏLİRİN FORMALAŞMASINDA QİYMƏT SİYASƏTİNİN ROLUNUN ARTIRILMASI İSTİQAMƏTLƏRİ ...................................................55
3.1. Milli gəlirin artırılmasında qiymət siyasəti .........................................................55
3.2. Milli gəlirin artırılmasında dövlətin qiymət tənzimlənməsinin təkmilləşdirilməsi yolları ...................................................................................................60
NƏTİCƏ VƏ TƏKLİFLƏR ......................................................................................67
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ..................................................70
Şəkillərin siyahısı ...................................................................................................73
Cədvəllərin siyahısı ................................................................................................74

# GİRİŞ

**Mövzunun aktuallığı.** Milli gəlirin formalaşdırılması, bölgüsü və eləcə də yenidən bölgüsü hər bir iqtisadi sistemdə dövlətin həyata keçirə bildiyi sosial-iqtisadi siyasətin əsas tərkib hissəsi kimi çıxış etməkdədir. Bu səbəbdən də əhali gəlirlərin baş verən dəyişikliklər dövlətin həyata keçirə bildiyi sosial-iqtisadi siyasətin təkmilləşdirilməsinin qiymətləndirilməsinə imkan verir.

Mürəkkəb bazar konyukturası əsas şəraitində gəlirlərin formalaşdırılması və eləcə də bölgüsü və yenidən bölgüsü problemlərini təhlil edərkən gəlirin iki əsas növünü- əmək gəlirlərini və əməksiz gəlirləri bir-birindən fərqləndirmək xüsusilə önəm daşıyır. Əmək gəlirləri dedikdə, zəhmətlə qazanılmış gəlirlər başa düşülür. əməksiz gəlirlər isə əmək gəlirlərinin tam əksi olub zəhmətsiz qazanılmış gəlirlər hesab olunur.

İnzibati amirlik sistemində əmək gəlirlərinin əsasını ancaq dövlət müəssisələrində və eləcə də kooperativlərdə işləyən şəxslərin əməklərinin dəyəri aid edilirdi. Rəsmi olaraq dövlət müəssisələrində və eləcə də kooperativ müəssisələrdə qazanılmamış əmək isə birmənalı olaraq əməksiz gəlirlərə aid edilirdi. Lakin bazar iqtisadiyyatı şəraitində isə əhalinin məcmu gəlirlərinin əməksiz və yaxud da əməkli gəlirlərə bılgüsü mexanizmi tam fərqlidir. Belə ki, mürəkkəb bazar iqtisadiyyatında sahibkarlıq fəaliyyətindən və yaxud da fərdi əmək fəaliyyətinin nəticəsi olaraq əldə olunmuş gəlir əmək gəlirləri hesab olunur. Əməksiz gəlirlərə isə mülkiyyətdən əldə olunan gəlirləri aid edə bilinər. Belə ki, rentadan, royaltidən, icarədən əldə olunan gəlirlər əməksiz gəlirlərin bir növünü təşkil edir.

Milli gəlirin artırılmasında əsas vasitələrdən biri də qiymət siyasətinin düzgün həyata keçirilməsidir. Belə ki, qiymətlərin bazarda müstəqil olaraq tələb və həmçinin təklifin qarşılıqlı əlaqəsi nəticəsində formalaşması milli gəlirin tərkibinə öz təsirini əhəmiyyətli şəkildə göstərməkdədir. Qiymətlərin artmasından və yaxud da

azalmasından asılı olaraq milli gəlirin səviyyəsində də müəyyən dəyişikliklər baş vermiş olur.

Gəlir-sahibkarlıq fəaliyyəti zamanı maddi istehsal sahəsində əldə edilən xalis gəliri əks etdirən iqtisadi kateqoriyadır. İstehsal amillərinin uyğunlaşması və məhsul subyektlərinin əlverişli istehsal fəaliyyəti nəticəsində məhsul istehlakçıya malın adı satış prosesində istehsal olunur və istehlak edilir. Müəssisə öz malını qiymətləndirir və istehlakçıya satır və buna görə də mənfəəti təmsil etməyən pul gəlirləri (pul vəsaitlərinin axını) əldə edir. Maliyyə nəticəsini dəqiqləşdirmək üçün daxilolmaları xərclərlə müqayisə etmək lazımdır. Pul xərcləri məsrəflərdən artıq olduqda maliyyə nəticəsi gəlirli hesab edilir. Sahibkarın əsas məqsədi mənfəət qazanmaqdır, lakin həmişə onu əldə edə bilməz. Əgər pul axınları icarənin dəyərindən az və ya bərabərdirsə, sahibkar təkcə istehsalat, elmi-texniki və sosial inkişaf üçün deyil, həm də Müflisləşmə və s.üçün maliyyə resurslarından məhrum olur. problemləri gözləyirik.

Yuxarıda deyilənlərdən belə nəticə çıxara bilərik. dissertasiya mövzusu kifayət qədər aktualdır və həmçinin bu sahənin tədqiqi problemə kompleks yanaşma tələb edir.

Problem səviyyəsi və öyrənmə səviyyəsi. Araşdırmalar göstərir ki, milli gəlirin formalaşmasında Qiymət amili müxtəlif iqtisadçıların, o cümlədən H.B. Allahverdiyevin miqyaslı tədqiqatlarından ibarətdir. Eyni zamanda, milli gəlirin formalaşmasının tədqiqi müxtəlif iqtisadçılar, o cümlədən M.K. Atakişiyev, R.N. tərəfindən diqqətlə tədqiq edilmişdir.Nurəliyeva. Lakin qiymət amilinin milli gəlirin formalaşmasına təsirinin tədqiqi kifayət qədər ətraflı öyrənilməmişdir. Dünya təcrübəsində bu sahənin nümunəvi inkişaf modelləri olsa da, ölkəmizdə bu sahənin inkişafı ilə bağlı əsasən tədqiqatlar kifayət qədər öyrənilməmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi milli gəlirləri formalaşdırmaq və  həmçinin milli gəlirin bölüşdürülməsi, həmçinin yenidən

bölüşdürülməsində Qiymət faktorunu araşdırmaqdır. Tədqiqat işinin məqsədinə nail olmaq üçün bir sıra vəzifələr qoyulmuşdur. Bu vəzifələr aşağıdakılardır:

Milli gəlirin formalaşması xüsusiyyətləri və daxili bazar qiymətlərinin səviyyəsi tədqiq edilir;

- ✓ Milli gəlirin formalaşmasında xarici ticarətin əhəmiyyəti və eləcə də idxal-ixrac qiymətlərinin təsiri mexanizmi təhlil edilir;
- ✓ Milli gəlirin formalaşmasında valyuta amili əhatəli şəkildə təhlil edilir;
- ✓ Milli gəlirin formalaşmasına təsir edən qiymət amilləri əhatəli təhlil edilir;
- ✓ Milli Gəlirin artmasında gömrük-tarif tənzimlənməsinin mövcud vəziyyətinin və daxili bazar qiymətlərinə təsirinin qiymətləndirilməsi genişmiqyaslı təhlil edilir.

**Tədqiqatın obyekti və predmenti:** Burada tədqiqatın predmetinin əsasını milli gəlirin formalaşması xüsusiyyətlərinin təhlili təşkil edə bilir. Tədqiqatın obyektini isə milli gəlirin artırılmasında qiymət siyasətinin təhlili təşkil edir.

**Tədqiqatın metodları.** Dissertasiya işinin yazılmasında analiz və sintez, eyni zamanda da induksiya və deduksiya metodlarından istifadə edilmişdir. Belə ki, analiz metodu kimi mövzu tam şəkildə götürülmüş və daha sonra fəsillərə bölünərək ayrı-ayrılıqda təhlil olunmuşdur. Daha sonra isə sintez metodu vasitəsilə bu fəsillər iqtisadi sistemdə birləşdirilmişdir. İnduksiya metodu vasitəsilə dissertasiya işi haqqında iqtisadi faktlar toplanmış, sistemləşdirilmiş və araşdırılmışdır. Sonra isə deduksiya metodu vasitəsilə isə həmin toplanmış faktlar əsasında nəzəri nəticələr, ümumi prinsiplər, başqa sözlə desək, əməli fəaliyyət üçün lazım olan zəruri tövsiyyələr müəyyən edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Bu tədqiqat işinin informasiya bazasını milli iqtisadiyyatın dövlət tənzimlənməsi, qiymətin əmələ gəlməsi və milli gəlirin formalaşması sahəsində dərs vəsaitləri həmçini xarici ədəbiyyatlar bununla yanaşı statistik məlumatlar, həmçinin də internet resurslarından əldə olunmuş məlumatlar təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri.** Tədqiqatın aparılmağına əngəl olan nəzəri-metodoliji çatışmazlıqlar, yetərli informasiya bazasının olmamağı və s.

**Dissertasiya işinin elmi və pratiki əhəmiyyəti:** Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan təşkil olunmuşdur:

- ✓ Milli gəlirin artırılmasında dövlətin qiymət tənzimlənməsi siyasətinin əsas istiqamətləri müəyyən olunmuşdur;
- ✓ Milli gəlirin artırılmasında qiymət siyasətinin əhəmiyyəti araşdırılmışdır;
- ✓ Milli gəlirin bölgüsü və  buunla yanaşı yenidən bölgüsündə dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətləri müəyyən edilmişdir.

**Dissertasiya işinin strukturu və həcmi:** Dissertasiya üç fəsildən, girişdən və nəticədən ibarətdir, onlardan hər biri üç məsələni əhatə edir. Dissertasiya işi yazarkən çoxsaylı ədəbi və internet resurslarından istifadə olunmuşdur. Həmçinin dissertasiya işinin yazılması üçün cədvəl və şəkillərdən istifadə olunmuşdur.

# FƏSİL I. MİLLİ GƏLİRİN FORMALAŞMASINDA QİYMƏT AMİLİNİN ƏHƏMİYYƏTİ VƏ ONUN ELMİ KONSEPTUAL ƏSASLARI

## 1.1. Milli gəlirin formalaşma xüsusiyyətləri və daxili bazar qiymətlərinin səviyyəsi

Milli gəlir haqqında danışarkən ilk olaraq əsas makroiqtisadi göstəricilərin ümumi xarakteristikasını vermək daha məqsədəmüvafiq olardı. Belə ki, milli gəlir də özü-özlüyündə əsas makroiqtisadi göstəricilərdən biri hesab olunur. Elə isə əsas makroiqtisadi göstəricilərə nələr aid edilir? Bu suala cavab verə bilmək üçün aşağıdakı şəkilə nəzər yetirək.

**Şəkil 1 Əsas makroiqtisadi göstəricilər**




**Mənbə:** B. Abbasov , 2005.

Şəkil 1-dən də görünə bildiyi kimi əsas makroiqtisadi göstəricilər dedikdə, Ümumi Daxili Məhsul, Ümumi Milli Məhsul, Şəxsi Gəlir, Milli Gəlir, Sərəncamda qalan Şəxsi Gəlir.

Xalis Milli Məhsulun məcmusu başa düşülür. Ümumi Milli Məhsul dedikdə, heç bir ərazi əlaməti nəzərə alınmadan bir ölkədən bir il ərzində istehsal etdiyi məhsulun ümumi dəyəri başa düşülür.

Ümumi Daxili Məhsul dedikdə isə, ərazi əlamətləri nəzərə alınmaqla, yəni hər hansısa bir ölkənin ərazisində bir il ərzində istehsal olunmuş əsasən bütün əmtəə və məhsulların ümumi dəyəri başa düşülür.

Yuxarıda dediklərimizi əyani misallar əsasında izah edək. Məsələn Çin Xalq Respublikasının ABŞ-da istehsal etdiyi məhsullar Çinin Ümumi Milli Məhsulu hesab olunur, lakin həmin müəssisələrin ABŞ-da istehsal etdikləri məhsullar ABŞ-ın Ümumi Daxili Məhsulu hesab olunur.

Əsas makroiqtisadi göstəricilərdən biri də Milli Gəlir hesab olunur. Milli Gəlir dedikdə, Xalis Milli Məhsuldan dolayı vergiləri çıxdıqdan sonra yerdə qalan hissə başa düşülür. Dolayı vergilər dedikdə isə müxtəlif növ əmtəə və məhsulların qiymətinə daxil olan əlavə vergilər başa düşülür. Dolayı vergilərə misal olaraq aksiz vergilərini, əlavə dəyər vergisini misal göstərmək olar ki, bu növ vergilər əmtəələrin qiymətində öz əksini tapmış olur. Deməli onda, yuxarıda qeyd etdiklərimiz əsasında Milli Gəlirin formalaşması üçün aşağıdakı düsturdan istifadə edə bilərik:

$$MG=XMM-DV$$

Burada MG- Milli Gəlir, XMM-Xalis Milli Məhsul, DV isə dolayı vergilər hesab olunur.

Gəlirlərin formalaşması, bölgüsü və onların yenidən bölgüsü haqqında müxtəlif iqtisadi ədəbiyyatlarda müxtəlif nəzəriyyələrə rast gəlmək mümkündür. Lakin bu nəzəriyyələr içində gəlirlərin formalaşması və onların bölgüsünü tam əhatə edən və daha aydın seçilən nəzəriyyələrdən biri də C.S.Millin nəzəriyyəsidir. C.S,Millin nəzəriyyəsinə əsasən, gəlirin formalaşması və bölgüsü bununla yanaşı yenidən bölgüsü istehsal amilləri hesabına yaranır. C.S,Millin nəzəriyyəsinə görə məhsulların ədalətli bölgüsü iki əsas amilə əsaslanır. Həmin amillərə isə aşağıdakı amilləri misal göstərmək olar:

- Rəqabətə əsaslanan amillər;
- Adət-ənənəyə əsaslanan amillər.

Yuxarıda qeyd etdiyimiz kimi də iqtisadi ədəbiyyatlarda gəlirlərin formalaşması, bölgüsü və onların yenidən bölgüsü ilə əlaqədar müxtəlif yanaşmalar mövcud olsa da, bu yanaşmaların heç biri biri-digərini inkar edəcək səviyyədə deyil. Gəlirlərin bölgüsü və təkrar bölgüsü ilə əlaqədar günümüzə qədər gəlib çatmış nəzəriyyələri aşağıdakı kimi ümumiləşdirmək olar:

- İstehsal amilləri üzrə-maliyyə. Material, o cümlədən də əmək resurslarının daha çox iqtisadi səmərə, gəlir əldə etmək məqsədilə həmin resursların daha effektiv istifadəsinə şərait yarada biləcək iqtisadi sahələr üzrə bölgüsüdür.
- İstehsalın nəticələri üzrə - yaradılmış məhsulun sahibkarlıq, transfert və mülkiyyət ödəmələrinə bölünməsi deməkdir ki, burada da sahibkarlıq ödəmələri dedikdə, sahibkar gəliri, mülkiyyət ödəmələri dedikdə, divident, faiz, renta, transfert ödəmələri dedikdə isə pensiya müavinəti və digər sosial yardımlar başa düşülür.

Milli gəlirin formalaşdırılması, bölgüsü və eləcə də yenidən bölgüsü hər bir iqtisadi sistemdə dövlətin həyata keçirdə bildiyi sosial-iqtisadi siyasətin əsasən tərkib hissəsi kimi çıxış etməkdədir. Bu səbəbdən də əhali gəlirlərin baş verən dəyişikliklər dövlətin həyata keçirdə bildiyi sosial-iqtisadi siyasətin təkmilləşdirilməsinin qiymətləndirilməsinə imkan verir.

Mürəkkəb bazar konyukturası şəraitində əsasən gəlirlərin formalaşdırılması və eləcə də bölgüsü və yenidən bölgüsü problemlərini təhlil edərkən gəlirin iki əsas növünü- əmək gəlirlərini və əməksiz gəlirləri bir-birindən fərqləndirmək xüsusilə önəm daşıyır. Əmək gəlirləri dedikdə, zəhmətlə qazanılmış gəlirlər başa düşülür. əməksiz gəlirlər isə əmək gəlirlərinin tam əksi olub zəhmətsiz qazanılmış gəlirlər hesab olunur.

İnzibati amirlik sistemində əmək gəlirlərinin əsasını ancaq dövlət müəssisələrində və eləcə də kooperativlərdə işləyən şəxslərin əməklərinin dəyəri aid edilirdi. Rəsmi olaraq dövlət müəssisələrində və eləcə də kooperativ müəssisələrdə qazanılmamış əmək isə birmənalı olaraq əməksiz gəlirlərə aid edilirdi. Lakin bazar iqtisadiyyatı şəraitində isə əhalinin məcmu gəlirlərinin əməksiz və yaxud da əməkli gəlirlərə bılgüsü mexanizmi tam fərqlidir. Belə ki, mürəkkəb bazar iqtisadiyyatında sahibkarlıq fəaliyyətindən və yaxud da fərdi əmək fəaliyyətinin nəticəsi olaraq əldə olunmuş gəlir əmək gəlirləri hesab olunur. Əməksiz gəlirlərə isə mülkiyyətdən əldə olunan gəlirləri aid etmək olar da. Belə ki, rentadan, royaltidən, icarədən əldə olunan gəlirlər əməksiz gəlirlərin bir növünü təşkil edir.

Yuxarıda qeyd olunan məcmu gəlirləri aşağıdakı şəkil vasitəsilə əhatəli təhlil etmək olar (Azərbaycanın Statistik Göstəriciləri 2015):

**Şəkil 2. Məcmu gəlirlər**

- Məcmu gəlirlər:
- Əmək haqqı və əməyin ödənilməsinin digər növləri
- Pensiyalar, təqaüdlər və sosial fondlardan digər ödəmələr və pulsuz xidmətləır
- Sahibkarlıq gəliri, faizlər dividentlər və mülkiyyətdən alınan digər gəlirlər
- Şəxsi yardımçı təsərrüfatdan alınan məhsullardan gələn gəlir
- Ailədə istifadə olunan və şəxsi yardımçı təsərrüfatlardan daxil olmuş natural məhsulların dəyəri

**Mənbə:** M.Meybullayev, 2011.

Mürəkkəb bazar iqtisadiyyatı şəraitində isə əməksiz gəlir dedikdə, əmək fəaliyyəti ilə heç bir əlaqəsi ola bilməyən sahələrdən əldə olunan gəlirlərin məcmusu başa düşülür. Əmək gəlirləri iki əsas qrupa bölünə bilir. Həmin qrupları aşağıdakı şəkil vasitəsilə göstərə bilərik:

**Şəkil 3. Əməksiz gəlirlərin növləri**




**Mənbə:** M.Meybullayev, 2011.

Şəkil 3-dən də məlum olur ki, əməksiz gəlirlər leqal və qeyri-qanuni gəlirlər olmaqla iki əsas qrupa bölünə bilir. Leqal əməksiz gəlirlərin əsasında dividenddən alınan gəlirlər, depozidlərdən, qiymətli kağızlardan və istiqraz vərəqələrindən, eləcə də bazar qiymətləri arasındakı fərqdən əldə olunan gəlirlər, rentadan royaltidən və yaxud da icarədən əldə olunan gəlirlər dayanır. Eyni zamanda da onu da qeyd oluna bilərik ki, bu gəlirlər bazar iqtisadiyyatının bütün qanunlarına uyğun gəlirlər hesab oluna bilər və obyektiv xarakterli gəlirlərdən hesab olunurlar.

Məlum məsələdir ki, iqtisadiyyatı bu kimi gəlirlərdən təmizləmək mümkün olan bir proses deyildir. Çünki bunun üçün ilk əsas növbədə qiymətli kağızlar bazarını, fond bazarını, sahibkarlıq fəaliyyətinin müxtəlif sahələrini ləöv etmək lazım olar ki, bu da iqtisadiyyatın birdəfəlik sonu deməkdir və belə olan şəraitdə bazar iqtisadiyyatının inzibati amirlik sistemi ilə əvəz olunması prosesinə gətirib çıxaracaqdır.

Qeyri-qanuni əməksiz gəlirlərin özü də iki əsas növə bölünür. Həmin növlər aşağıdakı şəkil vasitəsilə əks olunmuşdur.

**Şəkil 4. Qeyri-qanuni əməksiz gəlirlərin növləri.**




**Mənbə:** M.Meybullayev, 2011.

Şəkil 4-dən də göründüyü kimi qeyri-qanuni əməksiz gəlirlər möhtəkirlik və ümumkriminal gəlirlərə bölünür. Ümumkriminal əməksiz gəlirlər dedikdə isə korrupsiya, narkobiznes, qaçaqmalçılıq, reket və digər bu kimi fəaliyyətlər nəticəsində əldə olunan gəlirlər başa düşülür. bu tip gəlirlər rəsmi iqtisadiyyatın quruluşundan asılı olmadan mövcud olur. Bu tip gəlirlər sırf cinayətlə əlaqədar olduğu üçün bütün dünya dövlətləri tərəfindən qəbul olunmur və eyni zamanda da qanunla qadağan olunmuşdur. Möhtəkirlik fəaliyyəti nəticəsində əldə olunan gəlirlər dedikdə isə hər

hansısa bir məhsulun bazarda sərbəst olaraq formalaşmış bazar qiymətlərindən qat-qat baha qiymətə satılması, başqa sözlə desək. inhisar qiymətilə satılması prosesindən əldə olunan gəlirlər başa düşülür. Möhtəkirlik bazar iqtisadiyyatının əsasən ciddi deformasiyasının nəticəsi olub bununla yanaşı gizli inflyasiya doğurur bununla yanaşı bu da iri həcmli "qara bazar"ların yaranmasına səbəb olur. Bundan möhtəkirlər varlanmaq üçün əsas vasitə kimi istifadə edirə bilirlər. bu növ "gizli" gəlirlər bazar iqtisadiyyatı üçün səciyyəvi deyil, çünki bazar iqtisadiyyatında olan defisit əmtəələr olmur və olsa da bu çox nadir hallarda baş verə bilir. Bazar iqtisadiyyatının düzgün doğurduğu "gizli" gəlirlər tamamilə fərqli mənşəlidir. Burada, əsasən dünyada ən çox məşhur bir olan firmaların ticarət markalarının xüsusilə saxtalaşdırılması və həmçinin iş qüvvəsindən gizli istifadə oluna bilməsi, korrupsiyaya qurşanmış məmurların əsasən köməyi ilə əlverişli müqavilələrin bağlanması və s. geniş yayılmışdır.

Əhalinin istehlak səviyyəsi əhalinin gəlirləri ilə ölçülür. Beləliklə, əhalinin gəlirlilik səviyyəsi nə qədər yüksəksə, istehlak səviyyəsi bir o qədər yüksəkdir. Beləliklə, istehlak birbaşa gəlirlilikdən asılıdır. Əhalinin gəlirlərinin əsasən strukturunda əmək haqqı kifayət qədər yüksəkdir. Beləliklə, əhalinin böyük əksəriyyəti öz əməyinin satışından gəlir əldə edə bilir.

Bazar iqtisadiyyatı şəraitində əsasən tələb və təklifin bazar qanunları, mənfəətin maksimum səviyyəyə çatdırılması, kapitalın axını, əmək bazarlarının və məhsul satışının obyektiv ilə yanaşı mexanizmləri hökmranlıq edir. Bu cür amillər işçilərin əmək haqqının ödənilməsinə dövlətdən və müəssisələrdən asılı olmayaraq təsir edir. Deməli, əməyin ödənilməsi - işəgötürənin muzdlu işçiyə onun əmək müqaviləsinin şərtlərinə müvafiq qaydada icra etdiyi işə görə vəsaitlərin ödənilməsi öhdəçiliyidir.

Əməyin ödənilməsi - istehsal olunmuş məhsula və yaxud göstərilən xidmətə görə əmək qanunvericiliyində və eyni zamanda kollektiv müqavilələrdə nəzərdə tutulmuş müntəzəm alınan pul vəsait olur.

Geniş mənada əməyin ödənilməsi - icra olunan işin müəyyən kəmiyyət və keyfiyyətinə görə müxtəlif formada verilən vəsaitdir. Əməyin ödənilməsinin pul və qeyri-pul formaları fərqləndirilir.Onun əsasını pul forması kimi təşkil edə bilir ki, bu da bazarın əsasən subyektlərinin əmtəə-pul münasibətlərində pulun ümumi ekvivalent kimi daşıdığı rolu ilə şərtlənir.

Əmək haqqı dedikdə, işçi qüvvəsindən istifadənin qiyməti başa düşülür. Ümumilikdə əmək haqqı işçinin sərf etdiyi əməyin nəticəsində aldığı və həmçinin həyat səviyyəsini təmin edə bilmək məqsədilə istifadə etdiyi pul vəsaitlərinin cəmidir.

Dövlətin sosial siyasəti cəmiyyətin və həmçinin onun ayrı-ayrı üzvlərinin maddi rifah halının və onların həyat səviyyəsinin inkişafına yönəldilən tədbirlərin məcmusudur. Dövlətin sosial siyasəti əhali gəlirləri arasında qeyri-bərabər bölgünü aradan qaldırır, əhali qrupları arasında mövcud təbəqələşməni azaltmağa çalışır və eleəcə də ayrı-ayrı şəxslərin mülkiyyət sahəsində mövcud zəifliyini aradan qaldırmağa, iqtisadi fəaliyyətlə məşğul olan bütün qrupların iqtisadi zəifliyini ortadan çıxartmağa və eləcə də cəmiyyətdə baş verən və yaxud da gələcəkdə baş verə biləcək sosial ixtilafların qarşısının alınmasına yönəldilir. Mürəkkəb bazar iqtisadiyyatı şəraitində dövlətin həyata keçirdiyi bu sosial siyasət əhalinin əmlak sahəsində bərabərsizliyini tam olmasa da qismən aradan qaldırır, əhalinin bütün təbəqələri üçün iqtisadi fəaliyyətə başlamalarında başlanğıc şərtlərinin eyniliyini təmin edir (Azərbaycanın Statistik Göstəriciləri 2015).

Bazar iqtisadiyyatının hakim olduğu dövlətlərdə əhali gəlirləri arasında qeyri-bərabərlik mövcuddur. Dövlətin sosial-siyasətinin əsasında dayanan bu qeyri-bərabər gəlirlərin tənzimlənməsində beynəlxalq ölkələrin təcrübəsinə istinad olunur. Bazar iqtisadiyyatını müvəffəqiyyətlə həyata keçirən dünya dövlətlərində əhali gəlirləri ilə birlikdə onun arasında qeyri-bərabərliyin tənzimlənməsində vergi siyasətindən istifadə olunur. Yəni ki, bu ölkələrin təcrübəsinə əsasən istinad etsək görə bilərik ki, bu tipli ölkələrdə əhali gəlirləri arasında təbəqələşmənin qarşısını almaq üçün əhalinin nisbətən yüksək gəlir əldə edən təbəqələrinə daha çox vergi dərəcələri tətbiq oluna

bilir ki, bu da həmin şəxslərin gəlirlərinin bir qədər azalmasına, bunun əvəzində isə onlardan tutulan verginin əhalinin az gəlirli təbəqələri arasında bölüşdürülməsinin təmin olunması ilə həmin azgəlirli şəxslərin daha çox gəlir əldə etmələrinə şərait yarada bilmiş olur. Bu da son nəticədə əhali gəlirləri arasında qeyri-bərabər bölgünü nisbətən də olsa azalda bilir. Bütün dünya ölkələrində yoxulluğun aradan qaldırılması və əhali gəlirlərinin tənzimlənməsi sahəsində dövlət proqramları mövcuddur. Həmin proqramlar əhalinin aztəminatlı ailələrinə, yoxsul əhali qruplarına, əmək qabiliyyətini itirmiş şəxslərə dövlət dəstəyini təmin edir. Bu tədbirlər planına çoxuşaqlı ailələrə və əlillərə köməkliyin edilməsi, ərzaq və həmçinin müxtəlif imtiyazların verilməsi, əlillərə əlil arabalarının təqdim edilməsi və s. aid edilir (Abbasov A.B.,2005: 263).

Əhali qruplarına qarşı həyata keçirilən bu dövlət tədbirləri müxtəlif maliyyə resursları əsasında maliyyələşdirilir. Həmin maliyyələşdirmə mənbələri ilə aşağıdakı şəkil vasitəsilə tanış ola bilərik.

**Şəkil 5.Dövlətin sosial siyasətinin maliyyələşmə mənbələri**




**Mənbə:** M.Meybullayev, 2011.

Şəkil 5-dən aydın olur ki, dövlətin həyata keçirtdiyi sosial siyasətin əsas maliyyələşmə mənbələrinə ictimai və digər xeyriyyə fondları, işsizlikdən sığorta fondu, dövlət büdcəsi və eləcə də sosial müdafiənin həyata keçirən orqanların büdcədənkənar fondları aid edilir.

Əhalinin sosial müdafiəsinin təmin edilməsində dövlətin həyata keçirtdiyi əsas tənzimlənmə alətlərindən biri də gəlirlərin indeksasiyasıdır. Gəlirlərin indeksasiyası dedikdə, yaşayış səviyyəsinin artması nəticəsində əhali gəlirlərinin kompensasiya edilməsi prosesidir. Bu adətən inflyasiya dövrünə təsadüf edir. Belə ki, inflyasiya sürətləndiyi zaman qiymətlərin süni şəkildə artması və yaxud da pulun alıcılıq qabiliyyətinin aşağı düşə bilməsi əhalinin sosial vəziyyətinin geriləməsinə təsir edir ki, bu zaman dövlətin gəlir indeksasiyası siyasəti gəlirlərin aertırılması ilə yaranmış vəziyyəti kompensasiya etmiş olur. Bazar iqtisadiyyatına keçid ərəfəsində qiymətlərin

dəyişdirilməsinə uyğun olaraq bütün kompensasiya sistemi diferensiallaşmalı, daha çox aztəminatlı ailələrə tətbiq olunmalıdır.

İndeksləmə sistemini xarakterizə edən bir neçə meyar var. Qiymətlər qaldırıldıqdan əvvəl və ya sonra yoxlanıla bilər. Bundan əlavə, endeksleme tam və ya qismən ola bilər. indeksin qiymətlərinin tam indeksinə mütənasib olaraq qismən indeksasiya gəlirlərin yalnız qiymətlərin indeksasiyasına uyğun olaraq artırılmasını nəzərdə tutur.

XX əsrin ikinci yarısında endeksleme sistemi bazar iqtisadiyyatının əsasən inkişaf etmiş ölkələrində geniş yayılmışdır. İndeksləmə makro və mikro səviyyədə həyata keçirilir. İndeksasiya sistemində əhalinin gəlirləri səviyyəsinə əsaslanan differensial yanaşmaya üstünlük verilir. Bu tədbir ən yüksək gəlirlərə sahib olanlara tam kompensasiyadan ən aşağı gəlirli qruplara qədər minimum kompensasiyanı əhatə edir.

Başqa sözlə desək, əhalinin ən az təminatlı təbəqələri maksimum kompensasiya edilir, yəni onların gəlirləri indeksasiya olunur, əhalinin ən yüksək gəlirlərə sahib təbəqələri isə ən az indeksasiya olunmuş olur. İndeksləmə sağ həlledici gəlir ilə təqaüdçülər və cəmiyyətin digər üzvlərinin əsasən həyat səviyyəsinin saxlanılması üçün istifadə olunur. Gəlirlərin makroiqtisadi tənzimlənməsi aşağıdakı məsələlərin həllini birdə  nəzərdə tutur (X. Kazımlı, 2008):

Gəlirlərin müəyyən edilməsi və bölüşdürülməsi zamanı müvafiq qayda və normaların müəyyən edilə bilməsi və həyata keçirilməsi üzrə tədbirlərin hazırlanması;;

- ✓ müəssisənin, əhalinin, dövlət büdcəsinin gəlir və inflyasiyanın təsir dərəcəsini müəyyən etmək;
- ✓ İşsizlərin, habelə təhsili olmayan və ya təhsili olmayan şəxslərin sosial müdafiəsini təmin etmək üçün qanuni qüvvəyə malik olan məhkəmənin qərarı ilə tədbirlər görmək;;

- ✓ Prevention əhalinin gəlirlərindəki böyük fərqlərin aradan qaldırılması nəticəsində sosial təbəqələşmənin qarşısının alınması.Gəlirlərin tənzimlənməsinin mikrosəviyyədə həyata keçirilməsi prinsipi dedikdə və işçinin bütün əmək gəlirlərinin tənzimlənməsi sahəsində əsasən müəssisənin strategiyasını nəzərdə tutula bilir. Bu strategiya aşağıdakılar ilə bağlıdır:
- ✓ işçi qüvvəsinin alqı-satqı haqqında müqavilə;
- ✓ əmək haqqı və tarif sistemi;
- ✓ sosial ödəmələr və xidmətlər, işçilərin ixtisaslaşması, istehsal fəaliyyəti və başqa mülkiyyət növləri nəticəsində əldə olunan gəlirlərin formalaşması.

Dövlətin gəlir siyasətinin əsas məqsədi əhalinin rifah halının yüksəldilməsi, əhali qrupları arasında təbəqələşmənin aradan qaldırılması, sosial-iqtisadi inkişafın təmin edilməsi, sosial tərəqqinin stimullaşdırılmasıdır. Bu məqsədə nail ola bilmək üçün hökumətin yerinə yetirməli olduğu bir sıra vəzifələr mövcuddur.

Gəlirlərin yenidən bölgüsünə təsir edən əsas amillərdən biri də qiymət siyasəti ilə bağlıdır. Belə ki, gəlirlərin həcmi istehsal olunmuş məhsulun realizə olunmasından, yəni ki, onun satılmasından əldə olunan maliyyə vəsaitlərinin həcmi ilə ölçülür.

İnsanların gündəlik həyat fəaliyyətlərində icra etdikləri iqtisadi fəaliyyətlərin dəyərinin ölçülməsi üsullarından biri də qiymətdir. Yəni onların yaratdıqları,istehlak etdikləri o cümlədə vasitəçilik edərək göstərdikləri bütün fəaliyyətləri bir ölçüsü-qiyməti vardır. İqtisadi faəliyyətdə qiymət mürrəkkəb bir anlayış olub iqtisadi subyeklər arasında münasibətlərin ölçülməsində və dəyərləndirilməsində mühüm rol oynayır. Qiymət anlayışı müasir dövrdə “məhsulların istehsalı və reallaşdırılması,iş, xidmətllrəin yerinə yetirilmsəi ilə əlaqadar ictimai zəruri xərcləri əks etdiriən iqtisadi cəhətdən əsaslandırılmış səviyyədə mənfəəti təmin edən,tələb və təklif arasında

tarazlığa təsir göstərən elastikliki dəyişkənlik xassəsinə malik iqtisadi kateqoriyadır" (V. Niftullayev., 2014: səh. 32).

Qiymətin mahiyyətinin tədqiqi müxtəlif iqtisadçı alimlət tərəfindən müxtəlif istiqamətlərdə həyata keçirilmişdir. Belə ki. sözügedən iqtisadçı alimlər siyahısında A.Marşalı və onun qiymət konsepsiyasını xüsusilə vurğulamaq lazımdır. Marşal qiymətin yaranmasını izah edərək bazarda normal tələb və təklifin olması, azad reqabətin, bazar konyukturanın sabit olması fərziyyələri ilə çıxış etmiş və qiyməti zamana görə təsnifləşdirmişdir. A.Marşalla yanaşı A.Smit, D.Rikardo, B.Sey də öz nəzəriyyələrində qiymət anlayışına toxunmuş, onun mahiyyətini tədqiq etmişlər. Qiymət haqqında məşhur yanaşmalardan biri də K.Marksın adı ilə bağlıdır. Belə ki, K.Marks qiyməti dəyərə əsaslandırmış və qiyməti əmtəədə maddiləşmiş əməyin pulla ifadəsi adlandırmışdır (M.Ağamalıyev, T.Şükürov., 2010: səh. 106)

## 1.2. Milli gəlirin formalaşmasında valyuta amilinin təsiri və qiymət siyasəti

Əvvəlki paraqraflarda da göstərdiyimiz kimi, məhsulların qiyməti bazarda mövcud olan tələb və həmçinin təklifdən asılı olaraq formalaşır. Əgər hər hansısa bir əmtəə və yaxud da xidmətin qiyməti aşağı düşərsə. bu zaman həmin əmtəəyə olan tələb aşağı düşəcək. Demək onda qiymətlə tələb tərs mütənasibdir. Məhsulun qiymətinin artması həmin məhsula olan tələbi aşağı salacaq, təklifi isə artırmış olacaq. Tələblə təklifin kəsişdiyi nöqtə isə məhsulun tarazlıq qiyməti hesab olunacaq.

Lakin xarici ticarətdə əmtəələrin qiymətinə təsir göstərən tək amil məhsulun qiyməti deyildir. Belə ki, devalvasiya və yaxud da revalvasiya siyasətlərinin həyata keçirilməsi məhsulun qiymətində müəyyən qədər dəyişikliklərin yaranmasına gətirib çıxardacaq.

Devalvasiya dedikdə, milli valyutanın xarici valyuta ilə müqayisədə öz dəyərini itiməsi prosesi başa düşülür. devalvasiyanın yaranması nəticəsində pulun alıcılıq qabiliyyəti kifayət qədər aşağım  düşsə də, nəticə etibarilə daxili istehsal bir xeyli

artmış olur. Belə ki, sahibkar xaricdən daha yüksək kursa malik olan xarici valyuta ilə məhsul almaqdansa, ona alternativ olaraq daxili istehsalın artırılmasına can atır. Bu isə öz növbəsində sosial bir rifahın yüksəldilməsində əvəzsiz rol oynayır. Belə ki, daxili istehsalın inkişafı yeni iş yerlərinin açıla bilməsinə şərait yaradır.

Revalvasiya siyasəti isə devalvasiyanın tam əksi hesab olunur. Belə ki. revalvasiya siyasəti dedikdə, xarici valyutanın yerli valyutaya nəzərən öz dəyərini itirməsi, milli valyutanın daha da yüksəlməsi başa düşülür. Revalvasiyanın yarandığı anda idxal sürətlənir. Belə ki. xarici valyutanın öz dəyərini itirməsi sahibkara əvvəl aldığından da daha ucuz qiymətə məhsul almasına şərait yaradır və bunun da məntiqi nəticəsi olaraq məhsul ölkədaxili bazara daha ucuz yolla daxil olmuş olur. Lakin revalvasiya prosesinin sürətlənməsi daxili istehsalın zəifləməsinə, maddi rifah halının aşağı düşməsinə və eləcə də əhali qurupları arasında təbəqələşmənin yaranmasına gətirib çıxarda bilər.

Deməli onda məhsulların qiymətinin formalaşmasına təsir edə bilən əsas amillərdən biri də məhz haqqında danışdığımız valyuta məzənnələrinin üzən məzənnə sisteminə keçməsi ilə əlaqədardır.

Valyuta tənzimlənməsi dedikdə valyuta dəyərləri və yaxud da valyuta ilə aparılan əməliyyatların dövlət tərəfindən tənzimlənməsi mexanizmidir. Kapitalist ölkələrində valyuta mızınnələrinin tənzimlənməsi qaydaları dünya ölkələrinin və iqtisadiyyatlarının mövcud vəziyyətindən asılı olaraq müəyyən olunur. Çünki bütün ölkələrin iqtisadiyyatları az və ya həmçinin çox səviyyədə bir-biri ilə əlaqədardır. İqtisadiyyatda mövcud olan domino effekti bütün iqtisadiyyatların bir-birinə təsir etdiyinin ən bariz nümunəsidir. Bu səbəbdən də kapitalist ölkələrində valyuta məzənnələrinin tənzimlənməsi yalnız həmin ölkənin mövcud vəziyyətindən asılı deyil, eyni bir zamanda da digər ölkələrin iqtisadi vəziyyətlərinin təhlil olunması xüsusilə önəm kəsb edən əsas məsələlərdən biridir.

Valyuta tənzimlənmələri dövlətin maraqlarını əks etdirməklə yanaşı, həmçinin də valyuta əməliyyatlarına əsassız müdaxilələrin qarşısını almaqda əsas mexanizm

hesab olunur. Bu zaman dövlətin əsas məqsədi valyuta məzənnəsinin dəyişmə sərhədlərinin müəyyən olunmasıdır ki, bu proses iqtisadi ədəbiyyatlarda valyuta dəhlizi hesab olunur.

Valyuta tənzimlənməsinə dair qanunvericilik aktları demək olar ki, burada bütün dünya ölkələrində fəaliyyət göstərir. Çünki daxili istehsal və daxili bazarlarda alış-veriş yerli valyuta ilə birlikdə həyata keçirilsə də, inkişaf etmiş və eləcə də inkişafda olan ölkələr dünya bazarlarına çıxarkən xarici valyutadan istifadə edirlər. Bu səbəb üçündə hər bir ölkə valyuta dəyərli əməliyyatlarının həyata keçirilməsi və tənzimlənməsi məsələsində özünün qanunvericilik aktlarından istifadə edir. Həmin aktlara istinad etsək, görərik ki. bəzi dünya ölkələrində valyuta tənzimlənməsi sahəsində, eləcə də valyuta və yaxud da valyuta dəyərli əməliyyatların həyata keçirilməsində müxtəlif məhdudiyyətlər tətbiq olunmaqdadır. Bu da çox özünü üzən valyuta sistemində göstərir. Belə ki, üzən valyuta sistemində xarici valyutaların kursları maliyyə bazarlarında həmin məhsula olan əsas tələb və təklifin səviyyəsi ilə müəyyən olunur ki, bu halda da hansısa bir valyutaya əhalinin yüksək sürətlə meyl etməsi həmin valyutaya olan tələbi və son nəticədə isə həmin valyutanın kursunun sürətli artımına səbəb olur.

Dünya təcrübəsində valyuta tənzimlənməsinin iki əsas növündən istifadə olunur ki, bunlardan biri bazar tənzimlənməsi, digəri isə dövlət tənzimlənməsidir. Valyuta tənzimlənməsinin bazar modeli dəyər qanununun fəaliyyətinə və rəqabətə əsaslanır və valyuta bazarlarında sərbəst şəkildə öz-özünə baş verir. Valyuta tənzimlənməsinin bazar modeli isə valyuta məzənnələrinin bazar modelinin mənfi nəticələrini aradan qaldırmağa istiqamətlənmişdir.

Valyuta məzənnəsinin tənzimlənməsi sahəsində dünya ölkələri üç əsas metoddan istifadə edirlər. həmin metodlara aiddir:

- valyuta müdaxilələri;
- diskont siyasət;
- proteksionist siyasət.

Valyuta müdaxilələri valyuta siyasətinin əsas tənzimləyici alətlərindən biri kimi çıxış edir. Valyuta müdaxiləsi dedikdə, hər bir ölkənin mərkəzi bankının yerli valyutaların valyuta bazarlarında xarici valyutaya alınıb-satılması prosesində həyata keçirdiyi əsas mexanizmlərdən biridir.

Diskont siyasət dedikdə isə hər bir ölkənin mərkəzi bankının faiz dərəcələrində həyata keçirmiş olduğu dəyişikliklər başa düşülür. burada əsas məqsəd kreditin dəyərinə uyğun olaraq valyuta məzənnəsinin səviyyəsinin dəyişdirilməsinə nail olmaqdır. Son illərdə isə bu siyasət öz mahiyyətini günü-gündən itirməkdədir.

Proteksionist siyasət isə birmənalı olaraq ölkə iqtisadiyyatının qorunmasını və eləcə də milli valyutaların müdafiəsinə yönəldilmiş siyasətdir. protesionist siyasətin mahiyyətinin əsasında valyuta məhdudiyyətləri dayanır. Valyuta məhdudiyyətləri dedikdə isə qeyri-rezidentlərin və yaxud da rezidentlərin valyuta dəyərliləri ilə əməliyyatlarının inzibatçılıq və yaxud da qanunvericilik yolu ilə məhdudlaşdırılması, qadağan edilməsi və yaxud da reqlamentləşdirilməsi prosesi başa düşülür. valyuta məhdudiyyətlərinin bir neçə növü mövcuddur. Həmin növlərə aşağıdakıları misal çəkmək olar:

- valyuta blokadası;
- xarici valyutaların müstəqil alqı-satqı prosesinə qoyulan qadağalar;
- kapital hərəkətinin, beynəlxalq ödəmələrin, gəlirlərin repatriasiyası, qiymətli kağızların və  həmçini qızılın hərəkətinin tənzimlənməsi,
- xarici valyutaların və eləcə də digər valyutaların dövlətin əlində cəmləşməsi.

Valyuta məzənnələri müxtəlif dövlətlərin xarici ticarətlərinə əhmiyyətli dərəcədə təsir göstərmək imkanına malikdir. Bu təsir daha çox özünü idxal və ixracın qiymət nisbətində, eyni zamanda da idxal və ixrac fəaliyyətini həyata keçirən müxtəlif müəssisə və təşkilatların davranışlarında yaranan dəyişikliklərdə göstərir.

Başqa sözlə desək, milli valyutanın öz dəyərini itirməsi məhsul ixrac edən müəssisələrin qiymətləri aşağı salmasına şərait yaradır. Çünki ixrac nəticəsində əldə

olunmuş xarici valyutanın milli valyutaya dəyişdirilməsi zamanı yenə də əvvəlki gəliri əldə etmək mümkün olur. Belə olan halda isə ixracatçı müəssisə öz məhsuluna xarici bazarda asanlıqla alıcı kütləsi toplaya bilir (M.X.Meybullayev., 2001).

## 1.3. Milli gəlirin formalaşmasında xarici ticarətin rolu və idxal-ixrac qiymətlərinin təsiri istiqamətləri

Beynəlxalq ticarət dedikdə, dünya ölkələrinin əsasən bir-biri ilə pul və yaxud əmtəə formasında mübadilə prosesini həyata keçirdikləri bütün növ əməliyyatların məcmusu başa düşülür. Xarici ticarət dövriyyəsinin əsasında isə dünya ölkələrinin idxal və ixrac etdikləri bütün əmtəələrin ümumi dəyəri dayanır. Beynəlxalq ticarətin yaranıb formalaşması bilavasitə olaraq dünya ölkələrinin bir-birinə inteqrasiya olunması ilə birlikdə izah olunur. Belə ki, dünya ölkələri arasında mübadilə prosesinin genişlənməsi beynəlxalq ticarətin formalaşması üçün zəmin yaratmış oldu.

Bütün elm sahələrində olduğu kimi iqtisadiyyat sahələrinin nəzəriyyələrinin əsas məqsədi bu elm sahələrinin əsas predmetinə aid edilən hadisələrin əsas mahiyyətini və yaranma səbəblərini aşkara çıxartmaqdır. Bu zaman isə həmin sahələr arasında "səbəb-nəticə" əlaqələrinin təhlil olunması xüsusilə önəm daşıyan vacib məsələlərdən birinə çevrilir. Beynəlxalq ticarət nəzəriyyələrinin yaranma səbəbi isə dünya ölkələri arasında əmtəə və xidmətlərin satılma səbəblərini, onların realizə olunma xüsusiyyətlərini təhlil etməkdir. Beynəlxalq ticarət nəzəriyyələri aşağıda qeyd etdiyimiz üç əsas suala cavab axtarır:

- Dünya dövlətləri hansı səbəbə görə xarici ticarəti həyata keçirirlər, başqa sözlə, daxili ticarətlə müqayisədə xarici ticarət ölkələrə nə qazandırır?
- Dünya ölkələrinin həyata keçirtdikləri xarici ticarətin mahiyyətinin əsasında nə durur, başqa sözlə desək, dünya ölkələri nəyi ixrac etməli və yaxud da nəyi idxal etməli olduqlarını necə müəyyən edirlər?

- Ölkənin ixrac etdikləri məhsulların qiymətləri ilə idxal olunan məhsulların qiymətləri nisbəti və yaxud da xarici ticarətin həddləri nəyin əsasında formalaşmışdır?

Beynəlxalq ticarət nəzəriyyələri dörd əsas istiqamətə bölünür. Həmin istiqamətlər aşağıdakılardan ibarətdir:

- Klassik nəzəriyyələrə qədər mövcud olan konsepsiyalar;
- Klassik nəzəriyyələr;
- Neoklassik nəzəriyyələr;
- Müasir nəzəriyyələr.

Beynəlxalq ticarət haqqında formalaşmış ilk nəzəriyyə merkantilizm nəzəriyyəsi hesab olunur. Beynəlxalq ticarətə dair merkantilizm nəzəriyyəsi feodalizmin dağılması dövrünə təsadüf edir. Belə ki, feodalizm dağıldıqdan dərhal sonra müstəqil dövlətlərrin formalaşması nəticəsində həmin dövlətlər arasında ticarət əlaqələri də yaranıb formalaşmağa başlamışdır ki, bu da beynəlxalq ticarətin əsasını qoymuşdur. Beynəlxalq ticarətə dair ilk nəzəriyyə olan merkantilizmin əsas nümayəndələrinə misal olaraq Antuan Monkretyeni, Vilyam Stafforu, Tomas Meni, Çarlz Davenantı və digerlərini göstərmək olar.

Beynəlxalq ticarət nəzəriyyələrinin təkamülü Şəkil 6-da verilmişdir.

**Şəkil 6. Beynəlxalq ticarət nəzəriyyələri**




**Mənbə:** .B. Abbasov, 2005.

Merkantilizm nəzəriyyəsinə görə beynəlxalq ticarət üç əsas sektordan ibarətdir. həmin sektorlara isə aşağıdakıları misal çəkmək olar (Filipp Kotler, 2008: səh. 104):

- İstehsal sektoru;

- Kənd təsərrüfatı əsas sektoru;
- Beynəlxalq koloniyalar sektoru.

Merkantilizm sözünün hərfi mənası ticarət, tacir deməkdir. Beynəlxalq ticarətə dair merkantilizm nəzəriyyəsinə görə, iqtisadi sistemin ən əsas subyekti tacirlərdir, istehsalın əsas amili isə əməkdir.

Merkantilizm nəzəriyyəsinə görə, hər bir ölkənin əsas iqtisadi gücünün əsasında həmin ölkənin sahib olduğu qızıl və digər qiymətli metallarının səviyyəsi dayanır. Dövlət özünün qızıl və digər qiymətli metallarının həcmini artırmaqla özünü daha da güclü edə bilər və bunun əsas yolu xarici ticarət əlaqələrinin genişləndirilməsi və mübadilə prosesində qızıldan istifadənin genişləndirilməsidir.

Yuxarıda qeyd etdiklərimizdən bu nəticəyə gəlirik ki, merkantilizm nəzəriyyəsinin əsas mahiyyəti qızıl və digər qiymətli metalların dövlətin sərvətinin əsasında dayanmasıdır. Merkantilistlər eyni zamanda da ölkənin xəzinəsinə dövlətin siyasi və iqtisadi gücünün təməli kimi baxırlar.

Merkantilizm nəzəriyyəsi beynəlxalq ticarətin güclənməsində mühim rol oynamışdır. Danılmasz bir faktdır ki, beynəlxalq ticarətin yaranıb formalaşdığı ilkin dövrlərdə mübadilə vasitəsi kimi pul mövcud olmamışdır və alqı-satqı prosesləri qızıl vasitəsilə həyata keçirilmişdir. Bu isə merkantilizm nəzəriyyəsinin əsasında dayanan əsas amil idi. Qızıl ehtiyatlarına malik olan ölkələr daha asanlıqla xarici ticarəti həyata keçirə və mübadilə prosesinin iştirakçısına çevrilə bilirdilər.

Lakin Merkantilizm nəzəriyyəsini qəbul etməyən və onu tənqid edən müxtəlif iqtisadçılar və nəzəriyyəçilər də mövcud olmuşdur. Bunlardan ilk nəzəriyyəçi ingilis iqtisadçısı Devid Xyum olmuşdur. Devid Xyumun "qiymət-qızıl-axın"qarşılıqlı fəaliyyət mexanizmi "ölkə sonsuza qədər qızıl ehtiyatlarını artıra bilər və bu qızıl ehtiyatları həmin ölkənin beynəlxalq rəqabət qabiliyyətliliyinə bir o qədər də təsir etməyəcək" fikrini demək olar ki, şübhə altına qoydu. David Xyuma görə, ölkəyə qızıl ehtiyatlarının cəlb edilməsi və xəzinənin qızıl ehtiyatları ilə tam doldurulması ticarət balansında müsbət saldo yaradacaq. Bu isə əmək haqqlarının artmasına və

qiymətlərin isə ondan daha yüksək səviyyədə artımına gətirib çıxaracaqdır. Qiymətlərin belə sürətli artımı ölkələrin xarici rəqabət qabiliyyətinin aşağı düşməsi ilə nəticələnəcək. bunun əksinə olaraq isə ölkədən qızıl ehtiyatlarının çıxarılması əmək haqqlarının azalmasına və qiymətlərin isə ondan da daha aşağı səviyyədə aşağı düşməsinə şərait yaradacaqdır ki, bu da son nəticəsində ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyinin artmasına şərait yaradacaqdır.

Merkantilizm nəzəriyyəsinin yaranıb formalaşmağa başladığı dövrdən bir qədər sonra ikinci bir nəzəriyyə-fiziokratlar nəzəriyyəsi yaranmağa başladı. Fiziokratizm nəzəriyyəsi xarici ticarətə bir o qədər də önəmli yer verməsə də iqtisadiyyat elminin formalaşmasında müstəsna rola malik olmuşdur. Hər şeydən əvvəl də onu qeyd edək ki, fiziokratlar merkantilistlərdən fərqli olaraq, ölkə sərvətini ticarətlə əlaqələndirmirdilər. Fiziokratlara görə iqtisadiyyatın əsası istehsal, daha dəqiq desək isə kənd təsərrüfatında olan istehsalla əlaqəlidir. Fiziokratizm nəzəriyyəsinə görə, dövlət iqtisadi həyatın təbii təzahürlərinə müdaxilə etməməlidir. Bu məktəbin əsas banilərindən biri olan Fransua Kene belə hesab olunur ki, bu sahədə dövlətin əsas missiyası ictimai həyatda baş verən proseslərin tənzimlənməsinə dair qanunlar qəbul etməkdən ibarət olmalıdır. İqtisadiyyat isə özü-özünü tənzimləməlidir. Fiziokratlar nəzəriyyəsinin əsas nümayəndələrinə misal olaraq Viktor Mirabonu, Jak Turqonu və digərlərini göstərmək olar.

İqtisadiyyatın formalaşmasında mühim rol oynamış məktəblərdən biri də klassik məktəb olmuşdur. Klassik məktəbin yaradıcılarından olan Adam Smit sübut etmişdir ki, hər bir dövlətin və əsasən onun millətinin rifahı dövlətin yığmış olduğu qızıl ehtiyatlarının səviyyəsindən daha çox, millətin nə qədər əmtəə və xidmət növü istehsal etməsi ilə əlaqədardır. Bu səbəbdən də dövlətin əsas məqsədi qızıl yığımını təmin etmək olmamalı, bunun əvizinə isə əmək bölgüsü əsasında formalaşan istehsalın inkişafını təmin etməlidirlər. bütün bunların həyata keçirilməsi isə yalnız azad rəqabət şəraitində, başqa sözlə desək bazar subyektlərinin tam azad fəaliyyətinin nəticəsində əldə oluna bilər. Adam Smitin bu nəzəriyyəsi iqtisadiyyatda məşhur olan

“gözəgörünməz əl” nəzəriyyəsinə əsaslanır. Belə ki, bu nəzəriyyəyə görə, dövlət iqtisadiyyata olan müdaxilə etməməli. çünki bazar iqtisadiyyatı ideal bir sistemdir və özü-özünü tənzimləmək xüsusiyyətlərinə malikdir. Gözəgörünməz əl dedikdə isə Adam Smit qiymət sahəsində dövlətin tənzimlənmə mexanizmini nəzərdə tuturdu. Belə ki, Adam Smitə görə dövlətin iqtisadiyyata müdaxiləsi yalnız möhtəkir qiymətlərin yaranmasının qarşısının alınması sahəsində ola bilər. yəni ki, dövlət bazarın bir subyektin əlində cəmlənməsinin qarşısını ala bilərsə, bu halda bütün bazar subyektləri tam azad rəqabət şəraitində fəaliyyət göstərə bilərlər.

A.Smit öz nəzəriyyəsində göstərməyə çalışmışdır ki, beynəlxalq əmək bölgüsünün əsasında formalaşan xarici ticarət dünya istehsalının artmasında mühim rol oynaya bilir. Başqa sözlə desək. bir-biri ilə xarici ticarəti həyata keçirən iki ölkə beynəlxalq əmək bölgüsünün nəticəsində daha çox istehlak və istehsal səviyyələrini əldə etmiş olurlar ki. Bu da son nəticədə həmin ölkələrin həyat səviyyələrinin artmasına səbəb olur. Dolayı yolla, A.Smitin bu nəzəriyyə merkantilizm nəzəriyyəsində formalaşan bir prinsipi məhv edir. Belə ki, merkantilizm nəzəriyyəsinə görə xarici ticarətdə tərəflərdən biri udurdusa, digər tərəf uduzurdu. Çünki bir tərəf qızılı verirdi, digər tərəf isə qızılı alırdı. Qızılı verən tərəf uduzan, qızılı alan tərəf isə udan tərəf hesab olunurdu. A.Smitin bu nəzəriyyəsi isə sübuta yetirdi ki, xarici ticarətdə hər iki tərəf udur. Çünki bir tərəf istehsal etmiş olduğu məhsulu realizə edərək pul qazanır, digər tərəf isə pul verərək öz zəruri tələbatını ödəmiş olur.

A.Smitin istehsal xərcləri ilə əlaqədar yazdığı əsas nəzəriyyələrdən biri də mütləq üstünlüklər nəzəriyyəsidir. Bu nəzəriyyəyə əsasən deyə bilərik ki, dünya ölkələri özlərinin xarici ticarətlərində daha az xərc hesabına istehsal etdikləri məhsulları ixrac edir və digər ölkələrdən daha az istehsal xərci ilə istehsal olunmuş əmtəələri idxal edir. Çünki belə əmtəələrə daha ucuz başa gəlir və realizə olunması daha asan olur. Eyni zamanda da belə məhsulların realizə olunması nəticəsində dünya ölkələri daha çox mənfəət əldə etmiş olurlar.

A.Smitin bu nəzəriyyəsinin mahiyyət qazandığı vaxtadan təxminən 40 sonra Klassik məktəbin digər bir nümayəndəsi David Rikardo bu nəzəriyyəni bir qədər də təkmilləşdirdi. David Rikardonun formalaşdırdığı, daha doğrusu isə A.Smitin nəzəriyyələrini mükəmməlləşdirən David Rikardonun "müqayisəli üstünlüklər nəzəriyyəsi" o qədər güclü iqtisadi mahiyyətə malikdir ki, müasir beynəlxalq ticarətin əsası məhz bu nəzəriyyəyə dayanır (X.Kazımlı., 2008: səh. 84).

David Rikardonun bu nəzəriyyənin müddəaları "Siyasi iqtisadın prinsipləri və həmçinin vergiqoyma" (1817) əsərində əks olunmuşdur. "müqayisəli üstünlüklər nəzəriyyəsinə" əsasən deyə bilərik ki, beynəlxalq ticarəti yalnız mütləq üstünlüklər nəzəriyyəsi ilə məhdudlaşdırmaq olmaz. Eyni zamanda da David Rikardo göstərməyə çalışırdı ki, əgər iki dünya ölkəsi bir-birili xarici ticarət əlaqələrini həyata keçirərlərsə bu zaman az xərclə istehsal etdikləri məhsulların realizə olunması həyata keçirməklə yanaşı eyni zamanda da belə məhsulların istehsalı üzrə ixtisaslaşmalıdırlar. Belə olan halda yalnız hər iki tərəf bu beynəlxalq ticarətdən iqtisadi səmərə əldə edə biləcəklər.

Qiymətqoyma siyasəti hər bir müəssisənin fəaliyyətində mühim əhəmiyyət kəsb edə bilən məsələlərdən biridir. Qiymətqoyma siyasətinin həyata keçirilməsi müəssisənin marketinq siyasəti ilə birbaşa şəkildə əlaqəlidir. Başqa sözlə desək, qiymətqoyma siyasətinin hazırlanması və bununla yanaşı həyata keçirilməsi birbaşa marketinq departamentinin əsas vəzifə borcu hesab olunur.

Bir əmtəə bir çox yerlərdə satışa çıxdıqda, bir qiymətin qanunu ümumiyyətlə tutulacağına inanır. Bu, əsasən, yerlər arasındakı qiymət fərqi göndərmə, vergilər, digər paylama xərcləri və daha çoxunu təmsil edəndən çox ola bilməz.Ölkənin bazar iqtisadiyyatında mövcud olan qiymətləri aşağıdakı əsas əlamətlər üzrə təsnifləşdirilir (V. Niftullayev, 2014: səh. 346):

- ✓ Xidmət göstərilən dövriyyənin xarakterinə görə qiymətlər;
- ✓ Tənzimləmə dairəsindən asılı olan qiymətlər;
- ✓ Fəaliyyət göstərdiyi ərazidən asılı olan qiymətlər;

- ✓ Nəqliyyat xərclərinin malın qiymətinə daxil edilməsi metodundan asılı olan qiymətlər;
- ✓ Fəaliyyət müddətlərinə görə qiymətlər;
- ✓ Statistikada istifadə olunan qiymətlər.

Xidmət göstərilən dövriyyənin xarakterinə görə aşağıdakı qiymətlərdən istifadə olunur (V. Niftullayev, 2014: səh. 361):

- ✓ sənaye məhsulu üçün topdansatış qiymətləri. Bu qiymətlərlə müəssisələr istehsal etdikləri məhsulu digər müəssisələrə və satış təşkilatlarma satır;
- ✓ alış qiymətləri. Bu qiymətlərlə kənd təsərrüfatı məhsullarının istehsalçıları məhsulu gələcək (yenidən) emal üçün fırmalara, sənaye müəssisələrinə satır;

İstənilən qiymət bir-birilə olan qarşılıqlı əlaqədə olan elementləri əhatə edir. Qiymətin ayrı-ayrı elementlərinin faizlə ifadə olunmuş nisbəti onun quruluşunu əks etdirir. Bu, qiymətin ayri ayrı elementlərinin əhəmiyyəti və onun səviyyəsi haqqında mühakimə yürütməyə imkan verə bilir. Deməli, müəssisə topdansatış qiyməti aşağıdakı kimi ifadə oluna bilər (V. Niftullayev, 2014: səh. 364):

$$\mathbf{Q_m = \mathit{M_d} + \mathit{M} + \mathit{A_k} + ƏDV.}$$

Sənaye topdansatış qiyməti:

$$\mathbf{Q_s = Q_m + Ə_v}$$

Pərakəndə satış qiyməti isə:

$$\mathbf{\mathit{Q_p} = \mathit{Q_s} + T_ə}$$

Məhsulun qiymətinin əsasını onun maya dəyəri təşkil edir. Məlumdur ki, maya dəyəri məhsulun istehsalı və həmçinin satışı ilə əlaqədar olan cari xərclərin pul ilə ifadəsidir. Hər bir müəssisə məhsul buraxılışı ilə əlaqədar olan xərclərin ödənilməsinə və kifayət qədər mənfəət məbləğinin əldə edilməsinə çalışmalıdır. Mənfəət təkcə müəssisənin cari xərclərinin maliyyələşdirilməsini deyil, həm də müəssisənin inkişafmı təmin etməlidir.

# FƏSİL II. AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ GƏLİRİN FORMALAŞMASI VƏ QİYMƏT DİNAMİKASININ TƏHLİLİ

## 2.1. Milli Gəlirin formalaşmasında qiymət siyasətinin təsirini müəyyən edən amillərin təhlili

Sabit qiymətlərlə ÜDM, əsasən, iki metoddan istifadə olunmaqla qiymətləndirilir;

a) müvafiq qiymət indeksləri ilə hesabat dövründəki məlumatların cari qiymətlərlə deflyasiya edilməsi;

b) bazis ili (yəni baza qiymətləri ilə qiymətləndirmə əməliyyatı aparılan il) ərzindəki məlumatların müvafiq göstəricilərinin fiziki həcminin indeksləri ilə cari qiymətlərlə ekstrapolyasiya yolu ilə.

Ayrı-ayrı hallarda bazis qiymətlərilə birbaşa yenidənqiymətləndirmə metodu tətbiq olunur.

Əlavə dəyər istehsal hesabının tarazlayıcı maddəsidir. O, hesabat dövründə istehsal edilmiş malların və xidmətlərin (buraxılış) dəyəri ilə həmin dövrdə istehsal prosesində istehlak olunmuş (aralıq istehlak) malların və xidmətlərin dəyəri arasındakı fərq kimi müəyyən olunur.

Əlavə dəyər göstəricisinin məzmunu onun daimi qiymətləndirilməsinə metodoloji münasibəti müəyyən edir. Əlavə dəyər istehsal və istehlak edilmiş malların və xidmətlərin müşahidə olunan hər hansı axınları ilə bağlı olmadığı üçün, qiymətlərin və həcmlərin törəməsi kimi də təqdim olunmur. Buna görə əlavə dəyərin daimi qiymətlərlə qiymətləndirilməsinin əsas metodu ikiqat deflyasiya edilməsidir ki, bu zaman əlavə dəyərin sabit qiymətlərlə kəmiyyəti, sabit qiymətlərlə qiymətləndirilmiş buraxılış dəyəri ilə aralıq istehlak dəyəri arasındakı fərq kimi alınır.

Bazis ili qəbul olunmuş hər hansı ilin cari qiymətlərindən daimi qiymətlər kimi istifadə edilir. İqtisadiyyatda hazırkı vəziyyəti nəzərə alaraq, ÜDM

strukturunda dəyişikliklərin təsirini azaltmaq üçün onu ən əvvəl, qabaqkı ilin qiymətləri ilə qiymətləndirmək və bunun əsasında əvvəlki ilə nisbətən də fiziki həcm indekslərini müəyyənləşdirmək tövsiyə olunur (bu indekslərin bir qismi zəncirvari indekslərdir). Başqa illərə nisbətən fiziki həcm indeksləri (bazis indeksləri) zəncirvari indekslərin bir-birinə vurulması ilə alınır. Bazis ilinin qiymətləri ilə ÜDM-in dinamika sırasını almaq üçün bu ilin cari qiymətləri ilə onun həcmi, onun fiziki həcminin bazis indeksinə vurulur.

ÜDM-in həcmi, prinsipcə sahələrin ümumi əlavə dəyərinin məbləğindən ibarətdir. Lakin əsas qiymətlərlə və ya istehsal qiymətləri ilə buraxılmış hazır məhsulun qiymətləndirilməsi əsasında əlavə dəyərin qiymətləndirilməsinin xüsusiyyətlərini nəzərə alaraq, ÜDM aşağıdakı tərzdə alına bilər:

- Əsas qiymətlərlə əlavə dəyərin qiymətləndirilməsi əsasında. Bu zaman əsas qiymətlərlə sahələrin əlavə dəyərinin məbləğindən maliyyə vasitəçiləri xidmətlərinin şərti hesablanmış haqqı çıxılır üstəgəl məhsullara görə bütün vergilər, o cümlədən əlavə dəyərə görə vergi və idxal vergiləri əlavə edilir və məhsullara görə bütün subsidiyalar, o cümlədən idxal subsidiyaları çıxılır.
- İstehsalçıların qiymətləri ilə sahələrin əlavə dəyərinin məbləğindən maliyyə vasitəçiləri xidmətlərinin şərti hesablanmış haqqı çıxılır, əlavə dəyərə görə vergi və idxal vergiləri əlavə edilir və idxal subsidiyaları çıxılır. Əsas qiymətlərlə sahələrin əlavə dəyəri əsasında ümumi daxili məhsulun müəyyən edilməsi 1-ci cədvəldə göstərilmişdir. Qeyd etmək lazımdır ki, qiymətin yaranması xüsusiyyətlərinə, müvafiq olaraq kənd təsərrüfatında istehsalçıların qiymətlərinə qeyri-aşkar şəkildə məhsullara görə kənd təsərrüfatı mallarının alış qiyməti ilə birlikdə satış qiyməti arasında fərqlərin dövlət büdcəsindən ödənilən subsidiyalar da daxil edilir. Sonuncu tədarük təşkilatlarının qiymətlərdəki fərqlərlə əlaqədar zərərlərinin ödənilməsi üçün aşkar şəkildə onlara ödənilir. Həmin subsidiyaları istehsalçıların qiymətləri ilə əlavə dəyər əsasında bazar qiymətləri ilə ümumi daxili məhsulun müəyyən edilməsi zamanı istisna etmək

lazımdır.

Beləliklə, ikiqat deflyasiya etmək yolu ilə daimi qiymətlərlə ÜDM-i və onun fiziki həcm indekslərini aşağıdakı mərhələlər üzrə müəyyən etmək tövsiyə olunur:

- Əvvəlki ilin qiymətləri ilə ayrı-ayrı sahələrin hazır məhsulunun qiymətləndirilməsi;
- Əvvəlki ilin qiymətləri ilə ayrı-ayrı sahələrin aralıq istehlakının qiymətləndirilməsi;
- Əvvəlki ilin qiymətləri ilə ayrı-ayrı sahələrin əlavə dəyərinin hazır məhsulla aralıq istehlak arasında fərq kimi müəyyən edilməsi;
- Əvvəlki ilin qiymətləri ilə məhsullara görə vergilərin və subsidiyaların qiymətləndirilməsi.

Əvvəlki ilin qiymətləri ilə ÜDM-in, sahələrin əlavə olunmuş dəyərinin məbləği kimi müəyyən edilməsi, üstəgəl məhsullara görə vergilər, çıxılsın məhsullara görə subsidiyalar;

İkiqat deflyasiya edilməsindən, bir qayda olaraq, o hallarda istifadə edilir ki, hazır məhsul cari qiymətlərlə aralıq istehlak və qiymət indeksləri haqqında etibarlı informasiya olur. Əgər bu cür informasiya yoxdursa, daimi qiymətlərlə əlavə edilmiş dəyəri əvvəlki il ərzində sahələr üzrə cari qiymətlərlə onun kəmiyyətini ekstrapolyasiya etməklə fiziki həcm indeksləri ilə, yaxud malların və göstərilmiş xidmətlərin həcminin dəyişikliklərini fiziki ifadəsində səciyyələndirən indekslərlə müəyyənləşdirmək lazımdır.

Daimi qiymətlərlə əlavə dəyər, həmçinin hesabat ili ərzində cari qiymətlərlə onun kəmiyyətini birbaşa deflyasiya etməklə hazır məhsul üçün mövcud qiymət indeksləri ilə alına bilər, bu şərtlə ki, onlar doğru hesab edilmiş olsun.

Daimi qiymətlərlə, ümumi daxili məhsulun qiymətləndirilməsi üçün istifadə olunan qiymət və fiziki həcm indeksləri əlavə 1-də göstərilmişdir.

Cari qiymətlərlə istehsal hesabında malların və bazar xidmətlərinin buraxılışı, məhsullara görə xalis vergilərin kəmiyyəti üçün istehsalçıların qiymətlərindən fərqlənən əsas qiymətlərlə qiymətləndirilir. Sabit qiymətlərlə hazır məhsulun qiymətləndirilməsi üçün ayrılıqda onun hər bir komponentini qiymətləndirmək lazımdır.

İstehsalçıların qiymətləri ilə hazır məhsul istehsalçıların qiymət indeksləri üzrə dəflyasiya etmək yolu ilə yaxud məhsulun fiziki həcminin, ya da məlum sahədə istehsalın həcminin dəyişikliyini səciyyələndirən digər göstəricilərinin indeksləri üzrə ekstrapolyasiya yolu ilə qiymətləndirilir.

İstehsalçıların qiymətləri ilə hazır məhsulun sahələr üzrə daimi qiymətlərlə qiymətləndirilməsi üçün istifadə olunan metodlar və indekslər 1-ci cədvəldə göstərilmişdir.

ÜDM-in sabit qiymətlərlə kəmiyyəti aşağıdakı tərzdə alınır:

- Sahələrin sabit qiymətlərlə əlavə olunmuş dəyərinin məbləği, minus maliyyə vasitəçiləri xidmətlərinin sabit qiymətlərlə şərti hesablanmış haqqı, plyus məhsullardan tutulan bütün vergilər, o cümlədən əlavə dəyərdən vergi və sabit qiymətlərlə idxaldan vergilər, mınus məhsullara sübsidiyalar, o cümlədən sabit qiymətlərlə idxala subsidiyalar.
- Nəzərə almaq lazımdır ki, ayn-ayrı sahələr üzrə istehsalçıların qiymətləri ilə qiymətləndirmənin əsas qiymətlərlə qiymətləndirməyə keçilməsi zamanı qiymətqoymanın xüsusiyyətləri ilə əlaqədar olaraq bəzi vergilər və subsidiyalar, məsələn, əlavə dəyərə görə vergi, dövriyyə vergisi, aksizlər, satışdan vergi, kənd təsərrüfatı məhsullarının qiymətlərində fərqlərin büdcədən ödənilməsi hesaba alınmaya bilər. Lakin əsas qiymətlərlə əlavə dəyər əsasında sabit qiymətlərlə ÜDM müəyyən edilərkən məhsullara görə bütün vergilər və subsidiyalar hesaba alınmalıdır.

Əgər malların və xidmətlərin növləri üzrə məlumatlar yoxdursa, onda istehlak qiymətlərinin ev təsərrüfatları tərəfindən

satın alınmış bu malların və xidmətlərin hamısına aid olan ümumi indeksindən istifadə oluna bilər.

**Cədvəl 1. İstehsalçıların sabit qiymətləri ilə sahələrin istehsalının qiymətləndirilməsi**

| Sahələrin istehsalının komponentləri | Deflyasiya və ya ekstrapolyasiya üçün istifadə olunan indekslər |
|---|---|
| Sənaye<br>Sənaye müəssisələrinin məhsulu<br>Ev təsərrüfatları tərəfindən bitki yağı, meyvə-giləmeyvə və üzüm şərabı istehsalı<br>Əhali tərəfindən paltar, ayaqqabı, mebel və ev şeylərinin istehsalı və təmiri<br>Əhali tərəfindən tikinti materiallarının istehsalı | Müəssisələrin topdansatış qiymətlərinin indeksləri və ya malların təmsilçilərin fiziki həcm indeksləri 2)<br>Əvvəlki ilin istehsalçılarının orta qiymətləri üzrə birbaşa qiymətləndirmə və ya fiziki həcm indeksləri 2)<br>Yüngül sənaye müəssisələrinin topdansatış qiymətlərinin indeksi 1)<br>Tikinti materialları sənayesi müəssisələrinin topdansatış qiymətlərinin indeksi 1) |
| Kənd təsərrüfatı<br>Kənd təsərrüfatı mallarının istehsalı<br>- müəssisələr tərəfindən<br>- ev təsərrüfatları tərəfindən | Əvvəlki ilin istehsalçılarının orta qiymətləri üzrə birbaşa qiymətləndirmə və ya fiziki həcm indeksi 2)<br>Əvvəlki ilin orta realizə qiymətləri üzrə birbaşa qiymətləndirmə və ya fiziki həcm indeksi 2) |
| Çoxillik bitkilərin əkilməsi və becərilməsinin dəyəri<br>Bitməmiş istehsalın dəyərinin dəyişməsi | Əkilmiş bitki sahələrinin indeksi 2)<br>Payızlıq bitkilər əkini və qış şumu sahələrinin dəyişməsinin indeksi 2) |
| Kənd təsərrüfatına xidmət edən təşkilatların xidmətləri<br>Meşə təsərrüfatı | Məşğulların sayının dəyişməsinin indeksi 2)<br>Salınmış meşə sahələrinin və ya meşə qırmaların indeksi 2) |
| Balıqçılıq təsərrüfatı<br>Balıq ovu<br>Balıqyetişdirmə məhsulu<br>Tikinti<br>Tikinti müəssisələrinin məhsulu<br>Öz qüvvələri ilə əhalinin fərdi tikintisi | Fiziki həcm indeksləri<br>-balıq ovunun 2)<br>- balıq yetişdirmənin 2)<br>Tikinti-quraşdirma işləri qiymətlərinin indeksləri 1)<br>Podrat üsulu ilə ev təsərrüfatları üçün tikilmiş ümumi sahənin 1 kvadratmetrinin dəyərinin indeksi 1) |
| Nəqliyyat<br>Yük daşımalarından gəlirlər<br>Sərnişin daşımalarından gəlirlər | Sərnişin daşımaları tariflərinin indeksləri 1) yaxud sərnişin dövriyyəsinin indeksi 2) |

**Mənbə: Statistika Komitəsinin statistik hesabatlara dair metaməlumatları**

**Cədvəl 2. Ev təsərrüfatlarının son istehlakına çəkilən xərclərin sabit qiymətlərlə qiymətləndirilməsi**

| Son istehlaka çəkilən xərclərin komponentləri | Sətrin kodu | Qiymətləndirmə üçün istifadə olunan indekslər və metodlar |
|---|---|---|
| Istehlak mallarının və xidmətlərin satın alınmasına çəkilən xərclər | 01 | Malların və pullu xidmətlərin istehlak qiymətləndirilməsi indeksi 2) |
| Öz mənzilində yaşamaqla əlaqədar xidmətlərin dəyəri | 02 | Mənzil haqqı indeksi 1) yaxud xüsusi mənzil fondu sahəsinin indeksi 2) |
| Öz istehlakı üçün ev təsərrüfatları tərəfindən istehsal olunmuş və natura ilə əmək haqqın kimi müəssisələrdən alınmış (əmtəə qrupları üzrə) kənd təsərrüfatı məhsullarının istehlakı | 03 | 1983-cü ilin qiymətləri ilə bu malların fiziki həcmi indeksi 2) |
| Ölkənin iqtisadi ərazisində ev təsərrüfatlarının son istehlakına çəkilən xərclər (01+02+03) | 04 | |
| Xaricdə rezidentlər tərəfindən malların və xidmətlərin satın alınması | 05 | İdxal edilən istehlak mallarının qiymət indeksi, yaxud malların və pullu xidmətlərin istehlak qiymətlərinin indeksi 1) |
| Ölkənin iqtisadi ərazisində qeyri-rezidentlər tərəfindən malların və xidmətlərin satın alınması | 06 | Malların və pullu xidmətlərin istehlak qiymətlərinin indeksi 1) |
| Ev təsərrüfatlarının son istehlakına çəkilən xərclər (04+05-06) | 07 | - |

**Mənbə: Statistika komitəsinin statistik hesabatlara dair metaməlumatları**

Ev təsərrüfatları tərəfindən satın alınmış istehlak malları və xidmətlər müvafiq təmsiledici mallar (xidmətlər) üçün istehlak qiymətlərinin indeksləri üzrə sabit qiymətlərlə qiymətləndirilir

Fiskal siyasətin mahiyyətinin əsasında isə dövlətin müəyyən xərclərinin maliyyələşdirilməsinin təmin olunması məqsədilə ayrı-ayrı hüquqi və həmçinin fiziki şəxslərin gəlirlərinin əvvəlcədən müəyyən edilmiş həcmdə və qaydada dövlət

büdcəsinə və yaxud da dövlət xəzinəsinə cəlb edilməsi dayanır. Fiskal sözü latın mənşəli fisk sözündən əmələ gəlib və hərfi tərcüməsi zənbil deməkdir.

ÜDM-in həcmi son istifadə komponentlərinin cəmi kimi sabit qiymətlərlə qiymətləndirilmiş aşağıdakı komponentlərin cəmlənməsi ilə sabit qiymətlərlə hesablanır.

1) Sabit qiymətlərlə son istehlak (1.1+1.2+1.3)

1.1. Ev təsərrüfatlarının son istehlakına çəkilən xərclər.

1.2. Ümumi dövlət idarəsinin son istehlakına çəkilən xərclər.

1.3. Ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya sabit təşkilatlarının son istehlakına çəkilən xərclər.

2) Sabit qiymətlərlə ümumi yığım (2.1+2.2)

2.1. Əsas kapitalın ümumi yığımı.

2.2. Material dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi.

3) Sabit qiymətlərlə malların və xidmətlərin ixracı.

4) Sabit qiymətlərlə malların və xidmətlərin idxalı.

5) Sabit qiymətlərlə ümumi daxili məhsul (1+2+3-4),

Ev təsərrüfatlarının son istehlakına çəkilən xərclər sabit qiymətlərlə xərclərin aşağıdakı növləri üzrə qiymətləndirilir (2-ci cədvələ bax):

a) istehlak malları və xidmətlərinin satın alınmasına çəkilən xərclər;

b) öz mənzilində yaşayana göstərilən xidmətlərin dəyəri;

v) ev təsərrüfatları tərəfindən öz istehlakı üçün istehsal edilmiş və müəssisələrdən natura ilə əmək haqqı kimi alınmış malların istehlakı.

## 2.2. Milli Gəlirin artmasında gömrük-tarif tənzimlənməsinin mövcud vəziyyətinin və daxili bazar qiymətlərinə təsirinin qiymətləndirilməsi

Gömrük tarifi dedikdə Azərbaycan Respublikasının sərhəddindən keçirilən hər hansı mal və yaxud da məhsula tətbiq edilən və eləcə də Xarici İqtisadi Fəaliyyətin

Mal Nomenklaturasına əsaslanaraq tətbiq edilən gömrük rüsumlarının ümumi məcmusu başa düşülür. Tarix sözü ərəb mənşəli söz olub “siyahı” mənasını verir. Buradan belə həmçinin bir nəticəyə gələ bilərik ki, gömrük tarifi ölkədən çıxarılan və yaxud da ölkəyə gətirilən məhsullara tətbiq edilən rüsumların siyahısıdır. Gömrük tarixi xarakterinə görə iki əsas funksiyanı yerinə yetirir. Həmin funksiyalar aşağıdakı şəkil vasitəsilə əhatəli şəkildə təsvir olunmuşdur:

**Şəkil 7. Gömrük tarifinin funksiyaları**




**Mənbə:** Ф. Авдокушин , 2001.

Şəkil 7-dən də göründüyü kimi, Gömrük tarifinin iki əsas funksiyası mövcuddur ki, bunlardan birincisi proteksionist funksiya, digəri isə fiskal funksiya hesab olunur. Proteksionizm sözü öz mənasını elə öz adından götürür. Belə ki, “protekt” qorumaq, qarşısını almaq mənalarını ifadə edərək, ölkə daxilində mövcud bazarların xarici rəqabət mühitindən qorunması məqsədilə dövlətin həyata keçirtdiyi siyasətin əsas mözmununu əhatə edir. Buna ən yaxşı misal olaraq, müstəqillik əldə

etdiyi Azərbaycan Respublikasının köhnə texnologiya ilə xarici rəqabətə davamlı məhsul istehsal edə bilməməsini göstərilə bilərik. Belə olan halda isə nəinki iqtisadi təhlükəsizliyə nail olmaq, eyni zamanda da milli təhlükəsizliyin qorunub saxlanılmasında şox ciddi problemlər yarana bilər. bu baxımdan da dövlət proteksionizm siyasətindən istifadə edərək bu sahədə yaranmış problemlərin aradan qaldırılmasına şərait yaradır. Dediklərimizdən əsasən belə bir nəticəyə də gələ bilərik ki, proteksionizm siyasətinin əsasında dövlət tənzimlənməsi dayanır.

Dünyanın hər bir ölkəsində xarici ticarətin tənzimlənməsində gömrük tarifindən istifadə olunur. Hər bir ölkənin milli tarif sisteminin mövcud olması ilə yanaşı, eyni zamanda da regional və yaxud da məhəlli tarif sistemlərini özündə birləşdirən vahid tarif sistemi də mövcuddur. Tarif sistemində baş verə biləcək əsassız qiymət dəyişikliklərinin və eləcə də qiymət artımlarının qarşısının alınması və bu sistemə nəzarətin həyata keçirilməsi məqsədilə Tarif və həmçinin Ticarət üzrə Baş Saziş yaradılmışdır. Lakin bu Saziş 1995-ci ilə qədər öz fəaliyyətini davam etdirmiş, daha sonralar isə bu funksiyanı Ümumdünya Ticarət Təşkilatı öz üzərinə götürərək, tarif sistemində yarana biləcək süni qiymət artımlarının tənzimlənməsini həyata keçirtməkdə davam edir.

Gömrük tarif sistemində çoxtərəfli və ikitərəfli müqavilələr əsasında güzəştlər formalaşdırılır və tətbiq olunur. Belə güzəştlər preferensial rejim adlanır. Preferensial rejim dedikdə bir ölkənin idxal rüsumlarının azaldılmasında və yaxud da sadələşdirilməsində başqa bir ölkəyə vermiş olduğu güzəştlər hesab olunur.

Məlum olduğu kimi rüsumlar dünya qiymətləri ilə yerli qiymətlər arasındakı fərqə uyğun olaraq müəyyən edilir. Xüsusilə vurğulamaq lazımdır ki, hər bir ölkənin əsasən iqtisadi inkişafı ilə həmin ölkənin gömrük rüsumları arasında qarşılıqlı əlaqə mövcud olmalıdır. Buna əyani misal olaraq inkişaf etmiş ölkələrdə tətbiq olunan gömrük rüsumlarının həcminin azlığını misal göstərmək olar. Bunun isə əsas səbəbi belə inkişaf etmiş ölkələrdə istehsal olunan məhsulların və yaxud da əmtəələrin rəqabət qabiliyyəti kifayət qədər yüksək olduğu üçün daxili bazarların xarici rəqabət

mühitindən qorunmasına və eləcə də dövlət büdcəsinin həcminin yüksək gömrük rüsumları hesabına artırılmasına da elə bir ehtiyac qalmır.

Azərbaycan Respublikasında gömrük tariflərinin tənzimlənməsinin hüquqi əsasları mövcuddur. Belə ki, bu sahənin tənzimlənməsi üçün 1995-ci il 20 iyun tarixli "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilə bilmişdir. Bu qanundan çıxış edərək Azərbaycan Respublikasında gömrük tarifinin bir neçə əsas məqsədi müəyyən edilmişdir. Həmin məqsədlərə isə aşağıdakıları da aid etmək olar:

- Azərbaycan Respublikası ərazisində idxalın əmtəə strukturunun səmərəliliyinin artırılmasını təmin etmək;
- Ölkə respublikası ərazisinə gətirilən və yaxud da ölkədən çıxarılan əmtəələrin və malların, eləcə də xərclərin və valyuta gəlirlərinin proporsional nisbətini təmin etmək;
- Valyuta ehtiyatlarının Azərbaycan Respublikasının ərazisinə gətilə bilməsi və bu ərazidən çıxarılmasına əlverişli nəzarətin yaradılmasını təmin və təşkil etmək;
- Azərbaycan Respublikasında məhsulların və malların istehlak və istehsal strukturunda elmi texniki tərəqqinin ən son bir nailiyyətlərinin tətbiq edilməsini təmin etmək;
- Azərbaycan respublikasında iqtisadiyyatın və daxili bazarların xarici bazarlarda yaranmış rəqabətin əks təsirlərindən qorunmasını təmin etmək;
- Azərbaycan Respublikasının iqtisadiyyatının dünya təsərrüfatına və eləcə də dünya iqtisadiyyatına ilə əlverişli inteqrasiyasının yaradılmasını təmin etmək.

Gömrük rüsumları iki əsas qrupa bölünürlər: xüsusi və mösümi. Mövsümi rüsumlar dedikdə müxtəlif növ əmtəələrin və məhsulların idxalını və eləcə də ixracını tənzimləmək məqsədilə yaradılmış rüsum növü başa düşülür. bu rüsumlar adətən Gömrük tarifində nəzərdə tutulan gömrük tarifləri əsasında tətbiq olunur və ən əsas

xüsusiyyəti isə haqqında danışdığımız bu rüsumların qüvvədə olma müddəti 1 il ərzində 6 aydan çox ola bilməz.

Xüsusi növ rüsumlar isə müvəqqəti tətbiq edilən rüsumlardır. Bu rüsumların tətbiq edilməsində məqsəd Azərbaycan Respublikasının iqtisadi mənafeyini qorumaqdır və bu mənafeyin artırılması üçün yalnız idxal edilən məhsullara tətbiq edilən rüsumlardır.xüsusi növ rüsumlar da özü özlüyündə üç əsas növə ayrılır. Həmin növlərə isə aşağıdakıları misal çəkmək olar:

- Xüsusi rüsumlar;
- Antidempinq əsas rüsumları;
- Kompensasiya rüsumları.

Xüsusi rüsumlar aşağıda qeyd etdiyimiz hallarda tətbiq olunur:

- əgər ölkəyə idaxal olunan məhsullar, mallar və yaxud da əmtəələr həmin tipli məhsulların yerli istehsalçılarına zərər vurma iqtidarında ola bilərsə, onda idxal olunmuş həmin məhsullardan müdafiə və yaxud da qorunma tədbiri kimi;
- digər ölkələrin və onların siyasi həmçinin iqtisadi, hərbi və digər təyinatlı ittifaqlarının Azərbaycan Respublikasının mənafeyinə toxunan və yaxud da toxuna biləcək hərəkətlərinə cavab tədbiri kimi.

Antidempinq rüsumlarından danışarkən ilk olaraq dempinq anlayışının mahiyyəti ilə tanış olaq. Dempinq ingilis sözü olan “dumping” sözündən yaranmışdır, hərfi tərcüməsi isə “dağıtma, məhv etmə” deməkdir. Dempinq siyasətinin əsas mahiyyəti onunla ölçülür ki, burada istehsal olunmuş məhsullar bazarlarda dəyər-dəyməzinə, eləcə də maya dəyərindən də aşağı bir qiymətə satılır. Dempinq siyasətinin həyata keçirilməsində məqsəd itkiyə yol vermək deyildir. Dempinq siyasəti bazarlarda rəqabət qabiliyyəti güclü olduğu təqdirdə həyata keçirilir və yeganə məqsəd itki hesabına rəqiblərin sıradan çıxarılması və mövcud bazarda hakimiyyəti ələ almaqdır.

Antidempinq rüsumları o zaman tətbiq olunur ki, ölkəyə gətirilən malların ölkə ərazisinə çatdığı vaxtdakı qiyməti həmin məhsulun istehsal olunduğu ölkədəki dəyərindən aşağı olarsa və bu aşağı qiymət yerli istehsalçıların maraqlarına uyğun gəlməzsə və onların zərərlə işləməsinə şərait yaradarsa tətbiq olunur. Antidempinq rüsumlarının tətbiqi nəticəsində ölkəyə gətirilən mal ilə ölkə ərazisində istehsal olunan yerli məhsullar arasındakı qiymət fərqi aradan qalxmış olur ki, bu da bütün istehsalçıların bazarda bərabər imkanlar şəraitində rəqabət aparmalarına şərait yaradır.

Kompensasiya rüsumları dedikdə isə istehsalı, daşınması və ya ixracı zamanı xarici ölkələrin xüsusi subsidiyasının istifadə olunduğu malın, əmtəənin və yaxud da məhsulun gömrük ərazisinə idxalı həmin məhsulun yerli istehsal sahəsinə maddi zərər vurduqda, yerli istehsal sahəsinə maddi zərər vurmaq təhlükəsi yaratda bilməkdə və ya yerli istehsal sahəsinin yaradılmasının əsasən mühüm dərəcədə ləngiməsinə səbəb ola bildikdə tətbiq edilən rüsumlar başa düşülür.

## 2.3. Milli gəlirin yaranma mənbələrinin təhlili

Müxtəlif nəzəriyyəçilər gəlirlərin formalaşma və yaxud da yaranma mənbələrini müxtəlif aspektlərdən dəyərləndirirlər. Bununla yanaşı hər bir istehsal amilinin özünün də gəlirlər bağlı olduğunu vurğulamaq olar. Deməli onda istehsal amillərinin nələrdən ibarət olduğunu təhlil etmək gəlirlərin formalaşma mənbələrinin müəyyən olunmasında mühim vasitədir. İstehsal amilləri nəzəriyyəsinə əsaslansaq, istehsal amillərinin bir neçə əsas növü var. Həmin növlər aşağıdakı şəkil vasitəsilə verilmişdir.

**Şəkil 8. İstehsal amillərinin növləri**




**Mənbə:** http://unec.edu.az/application/uploads/2015/12/186_ gelir.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Yuxarıdakı şəkildən aydın olur ki, əsas istehsal amillərinə kapital, sahibkarlıq fəaliyyəti, təbii ehtiyatlar və əmək aid edilir. Burada təbii ehtiyatlar dedikdə, torpaq və digər təbii ehtiyatlar başa düşülür. kapitala isə investisiya axınlarını aid etmək olar.

İstehsal amilləri əsasında formalaşan gəlir ilkin gəlir hesab olunur. İlkin gəlirlərin bir neçə növləri var. Həmin növlər də aşağıdakı şəkil vasitəsilə verilmişdir.

**Şəkil 9. İlkin gəlirlərin növləri**




Mənbə: http://unec.edu.az/application/uploads/2015/12/186_gelir.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Yuxarıdakı şəkilə əsasən deyə bilərik ki, ilkin gəlirlər sahibkarlıq gəliri, mənfəətin əsas hissəsi kimi ssuda faizi, əmək haqqı və rentadan ibarətdir.

Yuxarıda qeyd etdiklərimizi daha əhatəli şəkildə təhlil etmək üçün aşağıdakı şəkildən istifadə edək.

**Şəkil 10. istehsal amilləri nəzəriyyəsinə əsasən gəlirlər və onların formalaşma mənbələri**




**Mənbə:** http://unec.edu.az/application/uploads/2015/12/186_gelir.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Yuxarıdakı şəkilin təhlilini aparaq. Şəkilə əsasən hansı gəlir növünün haradan formalaşdığı məlum olur. Şəkildə sol tərində əsas istehsal amilləri, sağ tərəfində isə həmin istehsal amillərinə uyğun olaraq formalaşan ilkin gəlirlərin növləri öz əksini tapmışdır. Şəkildən məlum olur ki, torpaq və bu kimi digər təbii ehtiyatlardan əldə olunan gəlirlər renta gəlirləri, kapitaldan əldə olunan gəlirlər ssuda gəlirləri və yaxud da mənfəətin bir hissəsi, əmək fəaliyyəti nəticəsində əldə olunmuş gəlirlər əmək haqqı gəlirləri, sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər isə sahibkar gəliri hesab olunur.

Renta dedikdə, torpaq və digər bu kimi təbii ehtiyatlardan əldə olunan gəliri əks etdirən iqtisadi kateqoriya başa düşülür. Digər anlamda renta məhdud miqdarda torpaq və bu kimi təbii ehtiyatlardan istifadə olunma nəticəsində ödənilən haqdır və torpaq mülkiyyətçisi tərəfindən müxtəlif şəxslərə icarəyə verilməklə əldə olunan gəlir növüdür. Rentanın iki əsas növünü bir-birindən fərqləndirmək lazım olur. Həmin növlər aşağıdakılardan ibarətdir:

- torpağın, mülkiyyətin və yaxud da digər təbii ehtiyatların istifadəsi nəticəsində də əldə olunan renta;
- sığorta şirkətləri tərəfindən sığorta olunana mövcud sığorta sənədləri. müqavilələri əsasında ödənilən gəlir forması kimi renta.

Kapital dedikdə isə istehsal vasitələrinin elə məcmusu başa düşülür ki, burada təsərrüfat fəaliyyətinə gəlir əldə etmək məqsədilə sərf olunan maliyyə ehtiyatları nəzərdə tutulur. Kapital iqtisadi kateqoriya olmaqla yanaşı, çox mürəkkəb fəaliyyət mexanizminə malikdir. Kapital gəlirlərinə misal olaraq ssuda faizlərini göstərmək olar.

Ssuda faizi dedikdə, kapitalın həcmindən və hansı fəaliyyət növünə qoyulmasından asılı olaraq əldə olunan gəlir növü başa düşülür.

Kapital gəlirlərinin əsas növlərindən biri də mülkiyyətdən əldə olunan gəlirlərdir. Mülkiyyətdən əldə olunan gəlirlərə isə əmanətlərdən əldə olunan faizlər, əhalinin mənzillərini satması nəticəsində əldə etdikləri gəlirləri, qiymətli kağızlarəın satışından əldə etdikləri gəlirləri və digərlərini misal göstərmək olar.

Sahibkarlıq gəliri dedikdə isə sahibkarın istənilən sahibkarlıq fəaliyyəti nəticəsində əldə etdiyi gəlir növü başa düşülür. Dediklərimizi bir qədər də əsaslandıraq. Hər bir sahibkar öz fəaliyyətini həyata keçirdiyi dövrdə müxtəlif banklardan, kredit təşkilatların maliyyə ehtiyatlarını müəyyən faizlərlə kreditə götürür və sahibkarlıq fəaliyyəti nəticəsində əldə edə bildiyi vəsaitin bir hissəsini həmin kredit borclarının ödənilməsinə sərf edir. Belə olan halda isə sahibkarın gəlirindən onun borclarının çıxılması nəticəsində mənfəət əmələ gəlmiş olur. Burada sahibkar gəliri

dedikdə, həmin mənfəətin bir hissəsi başa düşülür. Sahibkar gəlirlərinin özləri də iki əsas qrupa bölünür. Sahibkar gəlirlərinin növlərinə aşağıdakı şəkil vasitəsilə tanış ola bilərik

**Şəkil 11. Sahibkar gəlirinin növləri.**




**Mənbə:** http://unec.edu.az/application/uploads/2015/12/186_gelir.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Şəkil 11 - dən də aydın olur ki, sahibkar gəliri iki əsas qrupa- əlavə gəlir və şərti təminatlı gəlirə bölünür. Şərti təminatlı gəlirlər dedikdə, hər hansısa bir sahibkarın öz sahibkarlıq fəaliyyətinə cəlb edilməsi və fəaliyyətin uğurla davam etdirilməsi məqsədilə verilən maliyyə vəsaitidir. Lakin bu maliyyə vəsaiti geri ödənməni tələb etdiyindən bu gəlirə eyni zamanda müəssisədaxili xərc-məsrəf kimi də baxmaq olar.

Əlavə gəlir dedikdə isə şərti təminatlı gəlirin müəyyən hissəsi və yaxud da ondan əldə edilmiş gəlir növü başa düşülür. Əlavə gəlir sahibkarlıq fəaliyyətində sahibkarın risqinin və qeyri-müəyyən fəaliyyətinin haqqı kimi də qiymətləndirilə bilər.

Sahibkarlıq gəliri müxtəlif amillərdən asılı olaraq dəyişkən xarakterə malikdir. Belə ki, sahibkarlıq gəlirinin ümumi səviyyəsi əlavə gəlirin artmasından və yaxud da azalmasından asılı olaraq dəyişə bilər. eyni zamanda da sahibkarlıq gəlirinə təsir göstərən digər bi amil isə sahibkarlıq fəaliyyəti ilə həmçinin məşğul olan sahibkarın peşəkarlığı və onun işgüzarlığıdır.

Sahibkarlıq fəaliyyətini həyata keçirən sahibkar nə qədər işgüzar olarsa və yaxud da peşəkarlıq səviyyəsinə malik olarsa bir o qədər də yüksək gəlir əldə etmiş olar. Sahibkarlıq gəliri sahibkarlıq fəaliyyətinin tərifinə uyğundur. Belə ki. sahibkarlıq fəaliyyəti dedikdə mürəkkəb bazar konyukturası şəraitində ağılla risk edib mənfəət əldə olunması prosesi başa düşülür. Deməli sahibkar nə qədər ağılla risk edib mənfəət götürə bilərsə bir o qədər də sahibkarlıq gəliri özünün yüksək səviyyəsinə çatmış olar.

Sahibkarlıq gəliri sahibkarın həyata keçirmiş olduğu bəzi funksiyalara görə əldə etmiş olduğu gəlirdir. Həmin funksiyalar aşağıdakı şəkildə ətraflı təhlil olunmuşdur.

**Şəkil 12. Sahibkarın gəlir əldə etmə funksiyaları**




**Mənbə:** http://unec.edu.az/application/uploads/2015/12/186_gelir.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Şəkil 12-dən da göründüyü kimi, sahibkar gəlir əldə etmək üçün ilk növbədə məhsu istehsalına yeni texnikanın tətbiq edilməsini təmin etməli, eyni zamanda da istifadə olunan ehtiyatlarla bağlı risklərin düzgün müəyyən edilməsinə nail olmalı və müəssisənin fəaliyyətinin davamlı olmasına şərait yaradacaq idarəetmə qərarlarının qəbul etməlidir.

Sahibkarlıq gəlirlərinin formalaşmasında mühim əhəmiyyət kəsb edən anlayışlardan biri də risklərdir. Çünki risk anlayışı sahibkarın fəaliyyətinin əsasında duran ən əsas amildir. Sahibkar risk edərək mənfəət əldə edə bilirsə, bu sahibkar gəliri hesab olunur.

Risklərin idarə edilməsinin səmərəliliyi ilk növbədə riskin təsnifatı əsasında düzgün risk identifikasiyası ilə müəyyən edilir. Bu sistem katexol, qruplar, tiplər, bölmələri birləşdirir və risklərin idarə edilməsinin müvafiq metodlarından və üsullarından səmərəli istifadə olunmasını təmin edir. Hər bir risk idarəetmə yanaşmasına uyğun gəlir.

Risklərin aşağıdakı növləri fərqləndirilir (şəkil 14).

**Şəkil 13 Risqlərin növləri**




**Şəkil 1.3. Risklərin növləri**

21

**Mənbə:** http://unec.edu.az/application/uploads/2015/12/186_gelir.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

- Risklər iki əsas növə bölünür:
- Xalis risklər
- Möhtəkirlik riskləri
- Xalis risklər də öz növbəsində aşağıdakı risk növlərinə bölünür:
- Təbii-adi risklər
- Nəqliyyat riskləri;
- Əmlak riskləri;
- İstehlak riskləri;
- İstehsal riskləri;
- Ticarət riskləri
- Ekoloji risklər.

Möhtəkirlik riskləri isə aşağıdakı növlərə bölünür:

- Maliyyə riskləri;
- Kommersiya riskləri;
- Pulun alıcılıq qabiliyyəti ilə əlaqədar risklər;
- İnvestisiya riskləri.

Pulun alıcılıq qabiliyyəti ilə birlikdə bağlı olan risklər də öz növbəsində aşağıdakı risklərə bölünür:

- İnflyasiya və deflyasiya riskləri;
- Valyuta riskləri;
- Likvidlik riskləri.

İnvestisiya riskləri isə aşağıdakı risk növlərinə bölünür:

- Ədən buraxılmış gəlir riskləri (faiz və kredit riskləri)
- Xərclərin azaldılması riskləri
- Birbaşa maliyyə itkiləri riskləri (birbaşa selektiv və müflisləşmə riskləri)

Müəssisə üçün kredit riski kommersiya bankının kredit verməkdən, yaxud kredit vaxtını uzatmaqdan mümkün qədər imtina etməsindən ibarətdir. Bu borc üzrə faizi və əsas borc məbləğini ödəyə bilməmək riskidir.

# FƏSİL III. MİLLİ GƏLİRİN FORMALAŞMASINDA QİYMƏT SİYASƏTİNİN ROLUNUN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

## 3.1. Milli gəlirin artırılmasında qiymət siyasəti

Milli gəlirin artırılmasında əsas vasitələrdən biri də qiymət siyasətinin düzgün həyata keçirilməsidir. Belə ki, qiymətlərin bazarda müstəqil olaraq tələb və təklifin qarşılıqlı bir əlaqəsi nəticəsində formalaşması milli gəlirin tərkibinə öz təsirini əhəmiyyətli şəkildə göstərməkdədir.

**Cədvəl 3. Ümumi milli gəlirin tərkibi, cari qiymətlərlə**

| **Əməliyyatlar və balanslaşdırıcı maddələrin kodu və adı** | | **2013** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|
| D.1 | İşçilərin əmək haqqı | 10 077,0 | 10 560,5 | 10 965,0 | 11 740,6 |
| D.2 | İstehsala və idxala vergilər | 4 415,7 | 4 851,7 | 5 424,2 | 5 662,8 |
| | o cümlədən: | | | | |
| D.21 | məhsullara və idxala | 4 036,8 | 4 601,8 | 5 036,9 | 5 109,9 |
| | ondan: | | | | |
| D.212 | İdxala | 297,5 | 365,2 | 386,1 | 598,4 |
| D.29 | digər | 378,9 | 249,9 | 387,3 | 552,9 |
| D.3 | Subsidiyalar | | | | |
| | o cümlədən: | | | | |
| D.31 | məhsullara və idxala | -158,8 | -188,8 | -177,9 | -188,4 |
| | ondan: | | | | |
| D.311 | Idxala | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| D.39 | digər | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| B.2g/B.3g | Ümumi mənfəət (qarışıq gəlirlər) | 43 848,1 | 43 790,7 | 38 168,7 | 43 210,2 |
| B.1*g | **Bazar qiymətlərində ümumi daxili məhsul** | **58 182,0** | **59 014,1** | **54 380,0** | **60 425,2** |
| D.1 | Qalan dünyadan alınmış əmək haqqı | 431,1 | 440,5 | 431,7 | 440,0 |
| D.1 | Qalan dünyaya verilmiş əmək haqqı | -174,9 | -224,7 | -359,4 | -399,9 |
| D.4 | Mülkiyyətdən alınmış gəlirlər | 715,4 | 1 205,8 | 1 201,3 | 1 343,7 |
| D.4 | Mülkiyyətdən verilmiş gəlirlər | -3 865,2 | -3 113,3 | -3 012,4 | -5 015,0 |
| B.5g | İlkin gəlirlərin ümumi qalığı | 55 288,4 | 57 322,4 | 52 641,2 | 56 794,0 |
| D.7 | Alınmış cari transferlər | 1 695,4 | 1 819,1 | 1 657,1 | 1 563,6 |
| D.7 | Verilmiş cari transferlər | -1 287,4 | -1 275,1 | -1 031,5 | -899,6 |
| B.6g | Sərəncamda qalan ümumi gəlir | 55 696,4 | 57 866,4 | 53 266,8 | 57 457,9 |
| K.1 | Əsas fondların istehlakı | 2 617,8 | 3 466,3 | 3 643,3 | 3 997,5 |
| **B.6n** | **Sərəncamda qalan xalis gəlir** | **53 078,6** | **54 400,1** | **49 623,5** | **53 460,4** |

**Mənbə:** https://www.stat.gov.az/source/system_nat_accounts/- materiallar əsasında müllif trəfindən hazırlanmışdır

Dediklərimizi aşağıdakı cədvəl vasitəsilə daha əhatəli şəkildə görmək olar:

Cədvəl 3.də 2013-2016-cı illərdə cari qiymətlər əsasında milli gəlirin tərkibinin təsviri yer almışdır. Cədvəl 3-ə nəzər salsaq görərik ki, milli gəlirin tərkibində böyük hissəni əmək haqqı təşkil edir. 2013-cü illə 2016-cı ilin göstəricilərinə nəzər sala bilsək görərik ki, 2016-cı ildə cari qiymətlərdə milli gəlirin tərkibinə daxil edilən əmək haqqı gəlirlərinin həcmində artım müşahidə olunmuşdur. 2013-2016-cı illərin ümumi milli gəlirin xarakerindən asılı olaraq deyə bilərik ki, növbəti illəırdə də milli gəlirin tərkibində əmək haqqı səviyyəsi daha da yüksələcəkdir.

Ticarət müəssisələrinin qiymət siyasətindən danışarkən ortaya çıxan əsas həmçinin anlayışlardan biri də qiymət indeksidir. Qiymət indeksi (ing. Prise index) dedikdə, müəyyən edilmiş müddət ərzində və həmçinin müəyyən edilmiş yerdə hər hansısa bir əmtəə və məhsulların orta qiymət dəyişikliyini əks etdirən göstəricidir. Qiymət indeksinin yaradılmasında əsas məqsəd müxtəlif ərazilərdə mövcud olan eyni məhsulun qiymətləri arasında baş verə biləcək dəyişikliklərin müəyyən olunmasıdır. Bu səbəbdən də dünya ölkələrində qiymət indeksindən çox istifadə olunmaqdadır. Çünki eyni məhsulun müxtəlif ərazilərdə müxtəlif qiymətlərlə realizə olunması məsələsi çox aktualdır. Bunun da müxtəlif səbəbləri vardır. Belə ki, gömrük rüsumları bilavasitə olaraq məhsulun qiymətinə müxtəlif istiqamətdə təsir etmək imkanına malikdir. Gömrük rüsumlarının yüksək səviyyəsi bilavasitə olaraq məhsulun qiymətinin artırılmasına təsir edən əsas amil olduğundan məhsullar üzrə qiymət indeksinin tətbiq edilməsi demək olar ki, burada bütün dünya ölkələri tərəfindən tətbiq olunmaqdadır. Qiymət indeksinin iki əsas növünü bir-birindən fərqləndirirlər. həmin növlər aşağıdakı şəkil vasitəsilə verilmişdir (David Nickson; 2016):

İstehlakçı qiymət indeksi inflyasiya ilə əlaqədar olan qiymət indeksidir və dövlətlər tərəfindən yaxından izlənilir. Çünki bazar iqtisadiyyatında inflyasiya hər zaman yarana bilər və bu inflyasiya nəticəsində süni qiymət artımının səviyyəsinin ölçülməsində əsas qiymət indekslərindən biri hesab olunur. İstehlakçı qiymət indeksi ən yaxın və bununla yanaşı izlənən qiymət indeksidir. İstehlakçı Qiymət İndeksi

(Consumer Price İndex) dedikdə, istehlak edilmiş bütün əmtəə və xidmətlərin ümumi qiymətləri arasındakı fərqi müəyyən edir.

**Şəkil 14. Qiymət indeksinin növləri**




**Mənbə:** D. Nickson, 2016.

ÜDM deflyatoru ilə İstehlakçı qiymət indeksini bir-birindən fərqləndirən üç əsas xarakterik xüsusiyyət mövcuddur. Həmin fərqlərə aşağıdakıları aid etmək olar (Анкратов Ф.Г və Ерегина Т.К:2000. səh.33):

- ✓ İstehlakçı qiymət indeksi yalnız əhalinin istehlak etdiyi məhsulların qiymətlərindəki dəyişikliyi əks etdirirsə, bundan fərqli olaraq ÜDM deflyatoru istehsal prosesində iştirak etmiş bütün növ məhsulların və əmtəələrin qiymətləri arasındakı dəyişikliyi müəyyən edir. Belə ki, ancaq dövlət və özəl şirkətlər tərəfindən əldə olunan məhsulların qiymətlərində artım müşahidə olunarsa, bu artım özünü ÜDM deflyatorunda göstərəcəkdir.
- ✓ ÜDM deflyatoru ilə İstehlakı qiymət indeksi arasındakı ikinci əsas fərq isə qiymətlərin müxtəlif ərazilər üzrə artımı ilə əlaqədardır. Belə ki,

ÜDM deflyatoru yalnız ölkə hüdudlarının daxilində istehsal olunmuş bütün əmtəə və həmçinin xidmətlərin qiymətindəki dəyişikliyi müəyyən edirsə, bundan fərqli olaraq İstehlaçı qiymət indeksi istehlakçılar tərəfindən istər ölkə hüdudları daxilində, istərsədə xarici dövlətlərdən realizə etdikləri məhsulların qiymətləri arasındakı dəyişikliyi xarakterizə edir. Məsələn ölkəyə idxal olunan Mersedes markalı avtomobilin qiymətində artım və ya azalma müşahidə olunarsa, bu dəyişiklik özünün İstehlakçı qiymət indeksində göstərəcəkdir. ÜDM deflyatorunda isə belə bir dəyişiklik müəyyən olunmayacaqdır.

- ✓ İstehlakçı qiymət indeksi istehlak olunmuş əmtəə və həəmçini xidmətlərin qiymətindəki dəyişikliyi baza ili kimi əsas götürülmüş dövrdə müəyyən edirsə, bundan fərqli olaraq ÜDM deflyatoru əmtəə və xidmətlərin qiymətlərindəki fərqi hesabat ili ərzində istehsal olunmuş bütün əmtəə və xidmətlərin qiyməti üzərindən hesablayır.

Aşağıdakı şəkildə Azərbaycanda 2016-cı ildə iqtisadi rayonlar üzrə istehlak məhsulları və həmçinin əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksi öz əksini tapmışdır (Т.Б.Рубинштейн., 2004).

Şəkil 16-dan göründüyü kimi, istehlak mallarının qiymət indeksi üzrə ən aşağı göstərici Naxçıvan Muxtar Respublikasında müşahidə olunmuşdur. Belə ki, 2016-cı ildə Naxçıvan Muxtar Respublikası üzrə istehlak mallarının qiymət indeksi 103-109.9 intervalında olmuşdur. Qiymət indeksinin 2016-cı il üzrə ən yüksək göstəricilərinə nəzər sala bilsək görərik ki, Gəncə-Qazax və Quba-Xaçmaz iqtisadi rayonlarında istehlak mallarının qiymət indeksi Respublika üzrə ən yüksək səviyyədə müşahidə olunmuşdur. Kəlbəcər-Laçın iqtisadi zonası haqqında məlumatın olmamasının əsas səbəbi isə bu ərazinin erməni işğalında olması ilə əlaqədardır.

**Şəkil 15. 2016-cı ildə iqtisadi rayonlar üzrə istehlak məhsulları və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksi**




**Mənbə:** Б.Рубинштейн, 2004.

Aşağıdakı şəkildə isə 2012-2017-ci illərdə Azərbaycanda istehlak mallarının qiymət indeksinin dinamikası göstərilmişdir (Т.Б.Рубинштейн., 2004).

**Şəkil 16. 2012-2017-ci illərdə Azərbaycanda istehlak mallarının qiymət indeksinin dinamikası (2010-cu ilə nisbətdə, faizlə)**




**Mənbə:** ТРубинштейн, 2004.

Şəkil 16-dan də göründüyü kimi, 2012-2017-ci illər ərzində Azərbaycanda istehlak mallarının qiymət indeksi sabit qalmamışdır və artım tempi ilə hərəkət etmişdir. Qeyd edək ki, Şəkil 3-ün təhlili 2010-cu ildə olan qiymət indekslərinin səviyyəsi ilə müqayisə oluna bilmişdir. Belə ki, 2012-ci ildə 2010-cu illə müqayisədə istehlak qiymət indeksi 9 faiz artaraq 109% həcmində olmuşdur. 2013-cü ildə isə bu göstərici daha 2.6% artaraq 111.6 faiz həcmində müəyyən olunmuşdur. 2014-cü ilin göstəricilərinə baxsaq isə artım çox az müşahidə olunmuşdur. Belə ki, 2014-cü ildə istehlak qiymət indeksi 1.6% həcmində artaraq 113.2% olmuşdur. 2015-ci ildə də istehlak qiymət artımında cüzi artım müşahidə olunmuşdur. 2015-ci ilin rəsmi statistikasına əsasən, 2015-ci ildə istehlak qiymət indeksi 4.5% artaraq 117.7% olmuşdur. Lakin sürətli artım 2016 və 2017-ci illəri əhatə edir. Belə ki, 2016-cı ildə istehlak qiymət indeksi 2010-cu illə müqayisədə 32.4 faiz, 2015-ci illə müqayisədə isə 14.7 faiz arta bilmişdir. 2017-ci ildə isə istehlak qiymət indeksi 2010-cu illə müqayisədə 49.5%, 2016-cı illə müqayisədə isə 17.1% həcmində aertmışdır. İstehlak mallarının qiymət indeksinin son iki ildə artmasının əsas səbəbi isə şübhəsiz ki, devalvasiya siyasəti olmuşdur. Belə ki, milli valyutanın xarici valyutaya nəzərən öz dəyərini itirməsi idxal olunan istehlak mallarının qiymətinin sürətlə artmasına şərait yaratmışdır. Bu səbəbdən də devalvasiyaya qədər olan dövrdə istehlak qiymət indeksinin artım tempi zəifsürətlə, devalvasiyadan sonrakı dövrdə isə yüksək sürətlə artmağa doğru getmişdir.

## 3.2. Milli gəlirin artırılmasında dövlətin qiymət tənzimlənməsinin təkmilləşdirilməsi yolları

Milli gəlirin formalaşdırılması, bölgüsü və eləcə də yenidən bölgüsü hər bir iqtisadi sistemdə dövlətin həyata keçirdə bildiyi sosial-iqtisadi siyasətin əsas tərkib hissəsi kimi çıxış etməkdədir. Bu səbəbdən də əhali gəlirlərin baş verən dəyişikliklər

dövlətin həyata keçird bildiyi sosial-iqtisadi siyasətin təkmilləşdirilməsinin qiymətləndirilməsinə imkan verir.

Məcmu gəlirlərdən danışarkən qeyd edə bildi ki, hər bir ailənin ev təsərrüfatında əldə etmiş olduğu gəlir də məcmu gəlirin bir hissəsini əhatə etməkdədir. Bu, eyni zamanda da əhali gəlirlərinin formalaşması ilə əlaqədardır. əhali gəlirləri isə müxtəlif mənbələr hesabına formalaşa bilər. Həmin mənbələrə misal olaraq, məşğulluq nəticəsində əldə olunan gəlirləri, özüməşğulluqdan yaranan gəlirləri, mülkiyyətin satılması və yaxud da icarəsindən əldə olunan gəlirləri, kənd təsərrüfatı məhsullarının istehsalı və həmçinin istehsal olunmuş həmin məhsulların satışından əldə olunan gəlirləri, müavinətlər, sosial yardımlar və təqaüdlərdən əldə olunan gəlirləri, cari transfertlərdən əldə olunan gəlirləri və digər növ gəlirləri göstərmək olar.

Yuxarıda qeyd olunan əhali gəlirlərinin formalaşması mənbələrinə dair aşağıdakı şəkil xüsusilə əhəmiyyət kəsb edə bilir və həmçinin bu şəkilin əhatəli təhlili əhali gəlirlərin formalaşmasında və bunun nəticəsində də milli gəlirin formalaşmasında xüsusi rol oynayır.

**Şəkil 17. Əhali gəlirlərinin mənbələri**




**Mənbə:** M.Meybullayev, 2011

Şəkil 17-də qeyd olunan əhali gəlirlərinin təhlilinə nəzər yetirsək görərik ki, burada qeyd olunan gəlirlər arasında qeyri-bərabərlik mövcud odur. Belə ki, aydındır ki, sahibkarlıq fəaliyyətini hər bir şəxs eyni səviyyədə həyata keçirməyəcəkdir. Çünki sahibkarların gəlirləri də fərqli həcmdə olunur. Sahibkarlıq fəaliyyəti dedikdə, mürəkkəb bazar konyukturası şəraitində ağılla risk edib mənfəət əldə etmək prosesi başa düşülür. Sözsüz ki, hər kəs eyni səviyyədə risk etmədiyindən insanların da gəlirləri arasında bərabərsizlik, fərq yaranacaqdır. Digər bir nüans isə sosial müavinətlərin həcmi ilə əlaqədardır. Belə ki, hər kəs eyni səbəblərə görə dövlətdən sosial müavinət almadığına görə. Onların da gəlirləri arasında qeyri-bərabərlik hökm sürəcəkdir. Belə ki, əlilliyinə görə dövlət tərəfindən verilən sosial müavinət ilə işsizliyə görə verilən sosial müavinətlər arasında mextəlif fərqlər mövcuddur ki, bu da əhali gəlirləri arasında qeyri-bərabər bölgünün yaranmasına gətirib çıxarır.

Belə bir şəraitdə əhali qrupları arasında təbəqələşmə yaranır. Bu səbəbdən də milli gəlirlərin bölgüsü və onların yenidən bölgüsü kimi mühim əhəmiyyət kəsb edən məsələlər ortaya çıxır. Bu zaman əhali qrupları arasında təbəqələşmənin qarşısını almaq üçün dövlətin iqtisadiyyata müdaxiləsinə zərurət yaranır. Dövlət əhali gəlirlərini, eləcə də milli gəlirin təkrar bölgüsünü olur həyata keçirməklə əhali qrupları arasında yaranmış qeyri-bərabər gəlirlərin aradan qaldırılmasını təmin edir. əhali gəlirlərinin əsasən müxtəlif mənbələr hesabına formalaşdığı verilə bilmişdir.

Eyni zamanda da ev gəlirləri də milli gəlirə böyük təsir göstərir. Ev gəlirlərinion formalaşması müxtəlif istiqamətlərdə həyata keçirilə bilər.

Aşağıdakı şəkildə ev təsərrüfatlarının ümumi gəlirlərinin formalaşma mənbələri və eləcə də həmin göstəricilər əhatəli şəkildə təhlil olunmuşdur.

Əhali gəlirləri arasında qeyri-bərabərliyin aradan qaldırılmasında dövlət siyasəti mühim əhəmiyyət kəsb edən əsas və vacib məsələlərdən biridir. Bu eyni zamanda da milli gəlirin də təkrar bölgüsü siyasətində dövlət nəzarətinin həyata keçirilməsi deməkdir.

**Şəkil 18. Ev təsərrüfatlarının ümumi gəlir göstəriciləri**




**Mənbə:** M.Meybullayev, 2011

Aşağıdakı şəkildə milli gəlirlərin təkrar bölgüsünü ən uğurlu şəkildə həyata eçirən dövlətlərin şəkili verilmişdir. Tədqiqatımızı həmin şəkili əhatəli təhlil etməklə davam etdirək.

**Şəkil 19. Gəlirlərin dövlət tərəfindən ən uğurlu yenidən bölündüyü ölkələr**




**Mənbə**: N Qasımov, 2000.

Gəlir bərabərsizliyini ölçən başqa bir amil Cını indeksidir. Cını əmsalı gəlir bərabərsizliyini müəyyən edən bir göstəricidir. Gəlirlərin bərabər bölüşdürülməsi zamanı əhalinin bütün təbəqələri eyni maliyyə resurslarına malikdirlər. Lakin

praktikada mükəmməl bərabərlik səviyyəsi demək olar ki, mümkün deyil və heç vaxt müşahidə edilməmişdir. Lakin əgər bu baş verərsə, yəni gəlirlərin bölgüsü bərabər bölünərsə, cı əmsalı 0-ə bərabər olacaq. Qeyri-bərabərliyin mütləq və ya maksimum səviyyəsində Cını əmsalı vahid-1-ə bərabərdir. Burada Cını indeksi [0-1] aralığında olduğunu söyləyə bilərsiniz.

Dünya ölkələri arasında milli gəlirin artması həmin ölkədə istehsal oluna bilən əmtəə və xidmətlərə olan tələbin artması ilə yanaşı digər dövlətlərdə  istehsal olunan əmtəə və xidmətlərə ola bilən tələbi də artırır. Belə ki. əhali gəlirlərinin artması nəticəsində əhalinin maddi rifah halı daha da yaxşılaşır ki. bu da həmin insanlar qrupunun yerli məhsul istehlak etmələri ilə yanaşı eyni zamanda da xaricdə istehsal olunan məhsulları realizə etmək istəklərinin yaranmasına səbəb olur. Qeyd etdiyimiz amillər isə xaricdən idxal olunan əmtəələrin miqdarının artmasına gətirib çıxarır. Milli gəlirin azalması şəraitində isə həm daxili istehsala olan tələb azalır, həm də xarici məhsullara olan tələb aşağı səviyyəyə düşür. Belə olan halda isə xaricdən idxal olunan məhsulların miqdarında da açıq aşkar azalma müşahidə olunur.

Ümumi tələbin artmasına müxtəlif amillər təsir edir. Belə amillərdən biri də valyuta dəyişikliyi ilə əlaqədardır. Belə ki. xarici valyutanın milli valyuta nəzərən dəyərinin artması idxal olunan məhsulların qiymətinin atmasına şərait yaradır. Qiymət artdıqda isə həmin məhsula olan tələb azalır və yerli istehsala olan tələb artır. Deməli onda ölkənin həyata keçirdiyi devalvasiya siyasəti idxal olunan məhsullara tələbin azalmasına, bunun əvəzində isə daxili istehsal nəticəsində yaranan məhsullara olan tələbi artıracaqdır.

Ümumi təklifin də həcminə müxtəlif amillər təsir edir. Bu amilləri qiymət və həmçinin qeyri-qiymət amilləri olmaqla iki əsas qrupa ayırmaq olar. Məhsulun qiymətinin artması həmin məhsula olan təklifin artması ilə müşahidə olunur. Lakin təklifə təsir edən qeyri-qiymət amillərini isə aşağıdakı şəkil vasitəsilə izah etmək olar:

**Şəkil 20. Ümumi təklifin həcminə təsir edən qeyri-qiymət amilləri**




**Mənbə:** C.Sekhar, 2015.

Yuxarıdakı şəkildən də görünə bildiyi kimi, ümumi təklifin həcminə təsir edə bilən əsas amillərdən biri də iqtisadi ehtiyatların qiymətinin dəyişməsidir. belə ki. hər bir məhsul istehsalına müxtəlif həcmdə iqtisadi resurslar sərf olunur. Bu resursların qiymətinin qalxması son nəticədə istehsal xərclərini artırmaqla məhsulun qiymətinin aetmasına da şərait yaratmış olur. Belə olan halda isə məhsula olan tələb azalır. Məhsula olan tələbin azalması isə ona olan təklifin də azalmasına gətirib çıxarır.

İqtisadi ehtiyatların qiymətlərinin dəyişməsi müxtəlif amillərin təsiri altında ola bilər. həmin amillərə aşağıdakı şəkildə rast gəlinə bilər:

Mütəxəssislərin araşdırmalarına nəzər salsaq görərik ki, hər bir müəssisənin xərclərinin təxminən 70 faizi işçi və qulluqçuların əmək haqqlarının ödənilməsinin payına düşür. Deməli onda digər iqtisadi şərtlər sabit qaldığı təqdirdə işçilərin əmək haqqları məhsul vahidinin istehsalına çəkilən xərclərdə mühim rol oynayacaq və bu da son nəticədə məhsulun qiymətini artıracaqdır. Bir çox hallarda əmək ehtiyatlarının artması işçi qüvvəsinin qiymətinin aşağı düşməsinə səbəb olur və əksinə. Əmək ehtiyatlarının azalması işçi qüvvəsinin qiymətinin qalxmasına şərait yaradır.

**Şəkil 21. İqtisadi resursların qiymətindəki dəyişikliklərə təsir edən amillər**




**Mənbə:** M.Ağamalıyev, M.Məmmədrzayev, 2004.

Yuxarıdakı şəkildə də göründüyü kimi iqtisadi ehtiyatların qiymətlərindəki dəyişikliyə təsir edən əsas amillərə xaricdən gətirilən iqtisadi ehtiyatlar,əmək ehtiyatları, torpaq, ahibkarlıq qabiliyyəti, kapital kimi ölkə daxilində mövcud olan iqtisadi ehtiyatlar və bazar hökmranlığı təsir edir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Milli gəlirin formalaşdırılması, bölgüsü və eləcə də yenidən bölgüsü hər bir iqtisadi sistemdə dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsas tərkib hissəsi kimi də çıxış etməkdədir. Bu səbəbdən də əhali gəlirlərin baş verən dəyişikliklər dövlətin həyata keçirə bildiyi sosial-iqtisadi siyasətin təkmilləşdirilməsinin qiymətləndirilməsinə imkan verir.

Mürəkkəb bazar konyukturası şəraitində olan gəlirlərin formalaşdırılması və eləcə də bölgüsü və yenidən bölgüsü problemlərini təhlil edərkən gəlirin iki əsas növünü- əmək gəlirlərini və əməksiz gəlirləri bir-birindən fərqləndirmək xüsusilə önəm daşıyır. Əmək gəlirləri dedikdə, zəhmətlə qazanılmış gəlirlər başa düşülür. əməksiz gəlirlər isə əmək gəlirlərinin tam əksi olub zəhmətsiz qazanılmış gəlirlər hesab olunur.

İnzibati amirlik sistemində əmək gəlirlərinin əsasını ancaq dövlət müəssisələrində və eləcə də kooperativlərdə işləyən şəxslərin əməklərinin dəyəri aid edilirdi. Rəsmi olaraq dövlət müəssisələrində və eləcə də kooperativ müəssisələrdə qazanılmamış əmək isə birmənalı olaraq əməksiz gəlirlərə aid edilirdi. Lakin bazar iqtisadiyyatı şəraitində isə əhalinin məcmu gəlirlərinin əməksiz və yaxud da əməkli gəlirlərə bılgüsü mexanizmi tam fərqlidir. Belə ki, mürəkkəb bazar iqtisadiyyatında sahibkarlıq fəaliyyətindən və yaxud da fərdi əmək fəaliyyətinin nəticəsi olaraq əldə olunmuş gəlir əmək gəlirləri hesab olunur. Əməksiz gəlirlərə isə mülkiyyətdən əldə olunan gəlirləri aid edilə bilər. Belə ki, rentadan, royaltidən, icarədən əldə olunan gəlirlər əməksiz gəlirlərin bir növünü təşkil edir.

Milli gəlirin artırılmasında əsas vasitələrdən biri də qiymət siyasətinin düzgün həyata keçirilməsidir. Belə ki, qiymətlərin bazarda müstəqil olaraq tələb və təklifin qarşılıqlı əlaqəsi nəticəsində formalaşması milli gəlirin tərkibinə öz təsirini əhəmiyyətli şəkildə göstərməkdədir. Qiymətlərin artmasından və yaxud da

azalmasından asılı olaraq milli gəlirin səviyyəsində də müəyyən dəyişikliklər baş vermiş olur.

Gəlir-sahibkarlıq fəaliyyəti zamanı maddi istehsal sahəsində əldə edilən xalis gəliri əks etdirən iqtisadi kateqoriyadır. İstehsal amillərinin uyğunlaşması və məhsul subyektlərinin əlverişli istehsal fəaliyyəti nəticəsində məhsul istehlakçıya malın adı satış prosesində istehsal olunur və istehlak edilir. Müəssisə öz malını qiymətləndirir və istehlakçıya satır və buna görə də mənfəəti təmsil etməyən pul gəlirləri (pul vəsaitlərinin axını) əldə edir. Maliyyə nəticəsini dəqiqləşdirmək üçün daxilolmaları xərclərlə müqayisə etmək lazımdır. Pul xərcləri məsrəflərdən artıq olduqda maliyyə nəticəsi gəlirli hesab edilir. Sahibkarın əsas məqsədi mənfəət qazanmaqdır, lakin həmişə onu əldə edə bilməz. Əgər pul axınları icarənin dəyərindən az və ya bərabərdirsə, sahibkar təkcə istehsalat, elmi-texniki və sosial inkişaf üçün deyil, həm də Müflisləşmə və s.üçün maliyyə resurslarından məhrum olur. problemləri gözləyirik.

Yuxarıda qeyd edə bildiyimiz kimi iqtisadi ədəbiyyatlarda gəlirlərin formalaşması, bölgüsü və onların yenidən bölgüsü ilə əlaqədar müxtəlif yanaşmalar mövcud olsa da, bu yanaşmaların heç biri biri-digərini inkar edəcək səviyyədə deyil. Gəlirlərin bölgüsü və həmçini təkrar bölgüsü ilə əlaqədar günümüzə qədər gəlib çatmış nəzəriyyələri aşağıdakı kimi ümumiləşdirmək olar:

- İstehsal amilləri üzrə-maliyyə. Material, o cümlədən də əmək resurslarının daha çox iqtisadi səmərə, gəlir əldə etmək məqsədilə həmin resursların daha effektiv istifadəsinə şərait yarada biləcək iqtisadi sahələr üzrə bölgüsüdür.
- İstehsalın nəticələri üzrə - yaradılmış məhsulun sahibkarlıq, transfert və mülkiyyət ödəmələrinə bölünməsi deməkdir ki, burada da sahibkarlıq ödəmələri dedikdə, sahibkar gəliri, mülkiyyət ödəmələri dedikdə, divident, faiz, renta, transfert ödəmələri dedikdə isə pensiya müavinəti və digər sosial yardımlar başa düşülür.

Milli gəlirin formalaşdırılması, bölgüsü və eləcə də yenidən bölgüsü hər bir iqtisadi sistemdə dövlətin həyata keçirdə bildiyi sosial-iqtisadi siyasətin əsas tərkib bir hissəsi kimi çıxış etməkdədir. Bu səbəbdən də əhali gəlirlərin baş verən dəyişikliklər dövlətin həyata keçirdə bildiyi sosial-iqtisadi siyasətin təkmilləşdirilməsinin qiymətləndirilməsinə imkan verir.

Mürəkkəb bazar konyukturas əsas şəraitində gəlirlərin formalaşdırılması və eləcə də bölgüsü və yenidən bölgüsü problemlərini təhlil edərkən gəlirin iki əsas növünü- əmək gəlirlərini və əməksiz gəlirləri bir-birindən fərqləndirmək xüsusilə önəm daşıyır. Əmək gəlirləri dedikdə, zəhmətlə qazanılmış gəlirlər başa düşülür. əməksiz gəlirlər isə əmək gəlirlərinin tam əksi olub zəhmətsiz qazanılmış gəlirlər hesab olunur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**


1. Abbasov A.B (2005),. Biznesin əsasları. Dərslik. Bakı, “Nurlan”, 656 səh.
2. Ağamalıyev M., Şükürov T. (2010). “Ticarət müəssisəsinin iqtisadiyyatı”. Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin dərsliyi. Bakı, 253 səh.
3. Ağamalıyev M.Q. Məmmədrzayev M.M. (2004) “Kommersiya fəaliyyətinin təşkili”, Bakı, 254 səh.
4. Axundov M.Ə (2001). Strateji idarəetmə. Bakı, “Ağrıdağ”, 278 səh.
5. Axundov Ş.Ə (2003). Marketinq Dərslik(ikinci nəşri), I hissə. Bakı, 591 səh.
6. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M (2002). İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı:Nasir, 408 səh.
7. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları, Statistik məcmuə.
8. Azərbaycanın Statistik Göstəriciləri 2015” Bakı. 235 səh.
9. Çudakov A.D. (2009). “Qiymət və qiymətin əmələ gəlməsi”. Bakı 452 səh.
10. Feyzullabəyli İ.Ə. (2006) “Ticarətin iqtisadiyyatı”. Bakı, 257 səh.
11. Filipp K., Armstronq G., (2008)” Marketinqin əsasları”. Bakı, 475 səh.
12. Gregory M.N (2014). Makroekonomi. 6-cı baskı. Editor: Ömer Faruk Çolak. Ankara. 452 səh.
13. Hüseynov V.A., Hüseynov Z.R., İsmayılov Ş.Q., Mustafayev A.O (2005). Manatın bahalaşması və iqtisadi inkişaf: Nolland xəstəliyinin məzmunu və əlamətlərinin tədqiqi, Bakı: 140 s
14. Xəlilov Ş (2006). Vergilərin gəliri yenidən bölüşdürücü funksiyasının təhlili. AMEA İqtisadiyyat İnstitutu “Milli iqtisadiyyatın problemləri” məqalələr toplusu III Buraxılış” Bakı “Elm” 395 s.
15. Kazımlı X., (2008). “Qiymətləndirmənin əsasları”. Bakı, 252 səh.
16. Qriqori M.N., (2010) “Ekonomiksin əsasları”. Bakı, 452 səh.
17. Manafov Q.N (2008). İqtisadi nəzəriyyə: Mikroiqtisadiyyat, Bakı, 249 səh.

18. Meybullayev M.X., (2001). “İqtisadi nəzəriyyə”. Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin dərsliyi. Bakı, 420 səh.
19. Məmmədov E.Y (2014). “Müasir şəraitdə istehlak malları bazarının formalaşması və inkişafı problemləri”. Bakı, 258 səh.
20. Məmmədov T.(2008). ”Ticarətin təşkili və texnologiyası”. Bakı, 325 səh.
21. Niftullayev V. (2014) “Sahibkarlığın əsasları”, Bakı, 198 səh.
22. Paşayev K.P. (2010). “Ticarətin idarə edilməsi”. Bakı, 230 səh.
23. Paşayev K.R. Məmmədov T.C., (1981), “Ticarətin idarə edilməsi “. Dərs vəsaiti. Bakı, 422 səh.,
24. Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1996. 400 səh.
25. Şəkərəliyev A.Ş (1995). “Dünya bazarında qiymətin yaranması xüsusiyyətləri”. Bakı, 352 səh.
26. Şəkərəliyev A.Ş (2010). “Azərbaycanda sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti, onun inkişaf problemləri və perspektivləri”. Məqalələr toplusu. 252 səh.

**Rus dilində**

1. Анкратов Ф.Г (2000), ерегина Т.К, Коммерческая деятельность М., 252 стр.
2. Абрютина М.С (2014). Экономический анализ торговой деятельности: - М.: 452 стр.
3. Авдокушин Е.Ф (2001). Международные экономические отношения. – Москва: ИКЦ «Маркетинг» 406 стр.
4. Брагинский С.В., Певзнер А.Я. (2009). Политическая экономия: дискуссионные проблемы, пути об- новления. М, 245
5. Булатова А.С., (2002) Мировая экономика. Учебник. Под ред.. Изд. «Юрист». М, 245 стр.
6. Желтякова И.А., Маховинкова Г.А., Пузыня Н.Ю (2001). Цены и ценообразование: Учебное пособие. Краткий курс. - СПб.: ПИТЕР, 235 стр.

7. Костин И.М., Фасхиев Х.А (2001). Измерение конкурентоспособности предприятий. Междунар науч.-практ. конф. Наб. Челны: КамПИ, 247 стр.

8. Крие А., Жале Ж (2007). Внутренняя торговля: Пер.с фр./Общ.ред. В.С.Загашвили. М.: Прогресс-Универс, 400 стр.

9. Мендельсон М (2009). Руководство по франчайзингу. М.: «Сибли Интернэшнл, Инк.» 540 стр.

10. Рубинштейн Т.Б. (2004) "ВТО: практический аспект." Москва, 412 стр.

11. Фасхиев Х.А., (2003) Попова Е.В. Как измерить конкурентоспособность предприятия? // Маркетинг в России и за рубежом. № 4(36). 253 стр.

12. Цацулин А.И (2006). Цены и ценообразование в системе маркетинга: Учебное пособие. - М.: Филинъ, 520 стр.

**İngilis dilində**

1. C.S.Sekhar (2015). "Price Formation in World Wheat Markets-Implacations for Policy". 254 p.

2. David Nickson (2016). "The Bid Manager's Handbook". 247 p.

3. Diego Valiante (2013). "Price Formation in Commodities Market" 9 th Edition. 452 p.

4. Doyne Valiente (2017). "Realistic Costing and Pricing". 254 p.

5. Emma Jaques (2011). "Bid management". London-Philadelpia-New Delhi 478 p.

6. Jack Steevenson (2016). "Identifying Stock Market Bubbles". 254 p.

7. Mankiw G (2013). Macroeconomics. 3rd edition. 523 p.

8. Mankiw, G (2014). Economics. 8th edition. 542 p

9. Nord Pool (2015). "Price Formation". 254 p.

10. Tore Slaatta, Olav Torvund (2014). "Price and price system at commercial activity".

11. W.P.Pride (2009). Marketing. 9th ed. H.M. Company, .753 p.

## Şəkillərin siyahısı

Şəkil 1 Əsas makroiqtisadi göstəricilər..................................................................8
Şəkil 2. Məcmu gəlirlər......................................................................................11
Şəkil 3. Əməksiz gəlirlərin növləri....................................................................12
Şəkil 4. Qeyri-qanuni əməksiz gəlirlərin növləri...............................................13
Şəkil 5.Dövlətin sosial siyasətinin maliyyələşmə mənbələri...............................16
Şəkil 6. Beynəlxalq ticarət nəzəriyyələri............................................................28
Şəkil 7. Gömrük tarifinin funksiyaları................................................................41
Şəkil 8. İstehsal amillərinin növləri....................................................................45
Şəkil 9. İlkin gəlirlərin növləri...........................................................................46
Şəkil 10. istehsal amilləri nəzəriyyəsinə əsasən gəlirlər və onların formalaşma mənbələri..........................................................................................................47
Şəkil 11. Sahibkar gəlirinin növləri....................................................................49
Şəkil 12. Sahibkarın gəlir əldə etmə funksiyaları...............................................50
Şəkil 13 Risqlərin növləri....................................................................................51
Şəkil 14. Qiymət indeksinin növləri....................................................................56
Şəkil 15. 2016-cı ildə iqtisadi rayonlar üzrə istehlak məhsulları və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksi..................................................................58
Şəkil 16. 2012-2017-ci illərdə Azərbaycanda istehlak mallarının qiymət indeksinin dinamikası (2010-cu ilə nisbətdə, faizlə)............................................................57
Şəkil 17. Əhali gəlirlərinin mənbələri.................................................................58
Şəkil 18. Ev təsərrüfatlarının ümumi gəlir göstəriciləri.....................................61
Şəkil 19. Gəlirlərin dövlət tərəfindən ən uğurlu yenidən bölündüyü ölkələr..............61
Şəkil 20. Ümumi təklifin həcminə təsir edən qeyri-qiymət amilləri............................63
Şəkil 21. İqtisadi resursların qiymətindəki dəyişikliklərə təsir edən amillər..............64

## Cədvəllərin siyahısı

Cədvəl 1. İstehsalçıların sabit qiymətləri ilə sahələrin istehsalının qiymətləndirilməsi........................................................................................38

Cədvəl 2. Ev təsərrüfatlarının son istehlakına çəkilən xərclərin sabit qiymətlərlə qiymətləndirilməsi........................................................................................39

Cədvəl 3. Ümumi milli gəlirin tərkibi, cari qiymətlərlə..............................................54